

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 11 - noyabr 2021



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**N 11 - noyabr 2021**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib ....4
Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü münasibətilə xalqımızı təbrik edib ....8
Xalqımız 8 Noyabr - Zəfər Gününü böyük coşqu ilə, sevinc və qürurla qeyd edir ....8
Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan olunması təşəbbüsü ilə çıxış edib ....10
"8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il 5 noyabr tarixli Qərarı ....11

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Zəfər Günü münasibətilə Ədliyyə Nazirliyində silsilə tədbirlər keçirilib ....19
Zəfər Günü münasibətilə elan olunmuş amnistiya aktının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir ....23
Ədliyyə işçiləri peşə bayramlarını qeyd ediblər ....26
Fikrət Məmmədov. Tarixi Qələbəmizi təmin edən Prezident - Xalq birliyi Azərbaycana hələ çox zəfərlər qazandıracaq ....28
Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun müsahibəsi (rus dilində) ....36
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....49
Azərbaycan nümayəndəsi Avropa Şurası Ekspertlər Komitəsinin rəhbərliyinə seçilib ....49
Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib ....50
Hakimliyə namizədlərlə test imtahanı ....51
"Vəkillərin "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadəsi" mövzusunda videokonfrans ....52

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2021-ci il 11 noyabr tarixli Qərarı ....54

# 8 NOYABR - AZƏRBAYCANDA ZƏFƏR GÜNÜDÜR!







## Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib

**Noyabrın 8-də, Zəfər Günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib.**

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı**

- Əziz hərbçilər, sizi, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm. İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı

missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfıra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır.

Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artdı. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı.

Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi. Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır. İqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi. Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi.

Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik.

Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi. Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güc-





lü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

Bir daha demək istəyirəm, açıq-aydın görünürdü ki, düşmən öz xoşu ilə torpağımızdan çıxmaq istəmir, daha da azğınlaşır və Azərbaycan xalqının heysiyyətinə toxunmaq üçün qəbuledilməz addımlar atır və bəyanatlar verir. "Qarabağ Ermənistandır" deməklə Ermənistan təkcə danışıqlar prosesinə son qoymadı, eyni zamanda, bu, bizim üçün təhqir idi. Bizim üçün müqəddəs olan, Qarabağın tacı olan Şuşada saxta andiçmə mərasimi keçirmək bizim üçün təhqir idi. O şeytan yuvası, - harada ki, o tədbir keçirilmişdi - qəhrəman Azərbaycan Ordusu tərəfindən müharibə dövründə darmadağın edildi. Şuşaya qondarma qurumun qondarma "parlamentinin" köçürülməsi bizə növbəti dəfə sataşmaq idi. Ermənistan bizi təkəbbürlə, yekəxanalıq göstərərək yeni işğalla hədələyirdi. Biz nə qədər dözməli idik? Kimsə onların dərsini verməli idi, ya yox? Bax, sizin simanızda minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək düşmənə öz yerini göstərdi, düşməni elə vəziyyətə saldı ki, o vəziyyətdən o, əbədi çıxa bilməyəcək. Artıq o, məğlubedilmiş xalq və dövlət damğası ilə əbədi yaşayacaq.

Hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il, bax burada, Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili



hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik. Bütün beynəlxalq təzyiqlərə rəğmən, bütün hədəqorxulara rəğmən, xalqımız yumruq kimi birləşdi, Ordunun arxasında dayandı və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Ermənistan işğal dövründə öz ordusu haqqında, guya döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: "yenilməz Ermənistan ordusu". Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar.

Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

Əziz dostlar, əziz Azərbaycan xalqı. Mən sizi bu şanlı bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni qələbələr, Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!.

***

Sonra Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin baş leytenantı, "Qarabağ" ordenli Polad Feyzullayev, Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələrinin mayoru, Vətən Müharibəsi Qəhrəmanı Elvin Səfərov, Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrinin komandiri, polkovnik, Vətən Müharibəsi Qəhrəmanı Zəfər Yusibov çıxış ediblər.

Sonda xatirə şəkilləri çəkdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü münasibətilə xalqımızı təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 8 Noyabr - Zəfər Günü münasibətilə paylaşım edib.**

Paylaşımda deyilir: "Əziz həmvətənlər!

Vətən müharibəsində əldə edilən şanlı Qələbənin birinci ildönümü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm!

Sözlə ifadə edə bilmədiyim, daxilimizdə, qəlbimizdə yaşayan hissləri bizə bəxş edən Uca Tanrıya şükürlər olsun. Hər bir azərbaycanlı bu Qələbəni gözləyirdi, hər bir azərbaycanlı haqlı olaraq bu Qələbə ilə fəxr edir!

Müzəffər Ordumuza, qəhrəman əsgər və zabitlərimizə, mərd və qorxmaz, hər zaman sözünün sahibi olan Prezidentimizə "çox sağ olun" deyirəm!

Unudulmaz şəhidlərimizə Allah qəni-qəni rəhmət eləsin. Əyilməz iradəli, torpaq və ləyaqət uğrunda ölümə gedən övladlar böyütmüş ana və atalar qarşısında baş əyirəm.



Azərbaycan xalqı, Azərbaycan vətəndaşı, gözün aydın, başın daim uca olsun!

Biz əl-ələ verib, çətin və şərəfli yolu birlikdə addımlayaraq Qələbə zirvəsinə ucalmışıq! Qalib xalq kimi birliyimizi və müstəqil Azərbaycanımızı qorumaq bizim müqəddəs borcumuzdur! Uca Tanrı Azərbaycan xalqını və Azərbaycanı qorusun!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

# Xalqımız 8 Noyabr - Zəfər Gününü böyük coşqu ilə, sevinc və qürurla qeyd edir

**Azərbaycan xalqı Vətən müharibəsində qazanılmış şanlı Qələbənin birinci ildönümünü - Zəfər Gününü böyük coşqu, sevinc və qürur hissləri ilə qeyd edir.**

Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb. Xalqımız və rəşadətli Ordumuz 44 gündə şanlı tarix yazaraq 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanı qalib ölkəyə, Azərbaycan xalqını qalib xalqa çevirdi. Bu möhtəşəm Qələbə, eyni zamanda, Prezident-Xalq birliyinin təntənəsi oldu, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi.

Bu gün isə Qarabağın yaraları sağaldılır, bu yerlərə həyat qayıtmağa başlayır.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti hərbi təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Düşmənin on illiklər boyu qurub möhkəmləndirdiyi müdafiə xətti müharibənin ilk günündə yarıldı. Həmin gün Füzuli, Cəbrayıl rayonlarının altı kəndi, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olundu. Bu, ordumuzda, xalqımızda böyük ruh yüksəkliyi, Qələbəyə sonsuz inam yaratdı.

Vətən müharibəsinin ilk günündən başlayaraq daim irəli gedən ordumuz düşmənə sarsıdıcı zərbələr endirir, yaşayış məntəqələrimizi bir-birinin ardınca azad edirdi. Oktyabrın 3-də strateji əhəmiyyətə malik Suqovuşan və Talış kəndləri, bir gün sonra Cəbrayıl şəhəri və rayonun 9 kəndi düşmən tapdağından xilas olundu.



Cəbhədən qələbə xəbərləri gəlməkdə davam edir, Prezidentimizin verdiyi bu müjdələr xalqımıza sonsuz sevinc və qürur hissləri yaşadırdı. Oktyabrın 9-dan 26-dək Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli şəhəri, Xudafərin körpüsü, Zəngilan və Qubadlı şəhərləri düşməndən azad edildi.

Sözsüz ki, Qələbəmizin zirvəsi noyabrın 8-də Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciətində səbirsizliklə gözlənilən bu müjdəni verdi.

Prezidentimiz 2020-ci il dekabrın 3-də Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda qeyd edildiyi kimi, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən Vətən müharibəsindəki bu misilsiz Qələbə əbədiləşdirildi.

Şuşanın azad edilməsi ilə əslində müharibənin taleyi həll olundu. Noyabrın 9-da, cəmi bir gün ərzində Laçın rayonunun kəndləri də daxil olmaqla, 70-dən çox yaşayış məntəqəsi işğalçılardan təmizləndi. Nəhayət, noyabrın 9-dan 10-na keçən gecə imzalanan üçtərəfli Bəyanata əsasən Ermənistan işğal altındakı digər rayonlarımızdan çıxmasının tarixini verdi. Kapitulyasiya aktına imza atan Ermənistan Ağdam rayonunun işğal altındakı hissəsini, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz geri qaytarmağa məcbur oldu. Ümumiyyətlə, rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində 5 şəhəri, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi.

Vətən müharibəmiz, xüsusən Şuşa əməliyyatı hərb tariximizin ən parlaq səhifəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir, dünyanın aparıcı hərbi məktəblərində öyrənilir. İlk dəfə idi ki, pilotsuz uçuş aparatları döyüş meydanında bu miqyasda, indiyədək görünməmiş uğurla tətbiq olunmuşdu. Bununla yanaşı, yolsuzluq şəraitində, yüngül silahlarla günlərlə yorulmadan uzun məsafə qət etmək, keçilməz sayılan yolları keçərək Şuşanı azad etmək misli görünməmiş igidlik, qəhrəmanlıq nümunəsi kimi dəyərləndirilir.

Düşmənin yerlə-yeksan etdiyi həmin torpaqlarda bir ilə yaxındır ki, genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad olunan rayonlarımıza çoxsaylı səfərləri zamanı mühüm infrastruktur obyektləri istifadəyə verilir, yenilərinin təməli qoyulur. Cəmi 8 ay ərzində Füzulidə beynəlxalq aeroport tikilərək istifadəyə verilib, Füzulidən Şuşaya gedən Zəfər yolunun tikintisi başa çatıb, bir sıra elektrik stansiyaları işə salınıb. Azad olunan rayonlarımızda "ağıllı kənd" layihələri icra olunur. Ağdam, Cəbrayıl və Füzuli şəhərlərinin bərpasının təməli qoyulub.

Azərbaycan xalqı Zəfər Gününü Qarabağda aparılan misilsiz bərpa-quruculuq işləri fonunda yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Küçə və prospektlər, meydanlar, eyvanlar üçrəngli bayrağımızla bəzənib.

8 Noyabr - Zəfər Günü münasibətilə bir sıra kütləvi tədbirlər təşkil olunub. Paytaxtımızda şəhərin mərkəzinə doğru - Hərbi Qənimətlər Parkına qədər yürüş keçirilib, məscidlərimizdə namaz qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Axşam saatlarında Bakıda şanlı Zəfər tariximizə həsr edilən musiqili atəşfəşanlıq olub. Həmçinin bir sıra binalarda, o cümlədən "Alov qüllələri"nin, İqtisadiyyat Nazirliyinin, SOCAR-ın və "Baku Crystal Hall"un binalarının üzərində videoproyeksiya ilə Azərbaycan bayrağı əks etdirilib.

Zəfər Günümüz mübarək!

**AzərTAc**

# Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan olunması təşəbbüsü ilə çıxış edib



**8 Noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq və humanizm ənənələrini davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsü irəli sürülüb.**

Dövlət başçısının təşəbbüsü əsasında təqdim olunmuş amnistiya layihəsi Milli Məclis tərəfindən təsdiq olunub və 05.11.2021-ci il tarixdə "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərar qəbul edilib.

Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilən və tətbiq ediləcəyi şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azadetmə institutlarının dairəsinə görə ən böyük amnistiya olan bu aktın ümumilikdə 16 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır.

Amnistiya aktına əsasən, Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərin, mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumlarının, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, akta görə, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, cəzanın çəkilməmiş hissəsi 6 aydan az olan az ağır və ya ilk dəfə ağır cinayət törətmiş şəxslər, cəzanın sonuna 1 ildən az müddət qalmış məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər.

Həmçinin cərimə, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və digər azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulur.

Amnistiya aktı əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi gözlənilir.

8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLIKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi,

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əzəli torpaqlarımız olan Qarabağı və Şərqi Zəngəzuru uzun sürən işğaldan azad etdiyini böyük qürur hissi ilə xatırlayaraq,

2020-ci il noyabrın 8-də Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olan Şuşa şəhərinin qəhrəman Azərbaycan övladlarının hədsiz Vətən sevgisi və şücaəti sayəsində düşmən əsarətindən azad edilməsinin müharibənin gedişində həlledici rol oynadığını və Ermənistan Respublikasının təslim olması ilə nəticələndiyini vurğulayaraq,

8 noyabr tarixinin həmçinin uzun illər işğal altında olan torpaqlarımızın azad edilməsi üçün misilsiz səylər göstərmiş ümummilli lider Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gün olduğunu məmnunluqla yada salaraq,

Vətən müharibəsi dövründə yüksək əzm, möhkəm iradə, vahid amal ətrafında birləşmək, bütün gücünü və imkanlarını səfərbər etmək, əsgərinə, şəhid və qazilərinə sonsuz ehtiram kimi ali xüsusiyyətlərini nümayiş etdirmiş Azərbaycan xalqının özünəgüvən hissinin və qələbə ruhunun Zəfər Günü ilə daha da yüksəldiyini xüsusi qeyd edərək,

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi ilə bərqərar olmuş ədalət və hüququn aliliyi ideallarının hər bir dövlət və cəmiyyət üçün əhəmiyyətini vurğulayaraq,

humanizm ənənələrini davam etdirərək, cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad olunacaq şəxslərin dövlətimizin rifahına və inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək,

Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı bu qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 8 Noyabr - Zəfər Günü münasibətilə aşağıdakı amnistiyanın elan edilməsini qərara alır:

I. Amnistiya tətbiq edilən şəxslərin dairəsi

1. Təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq aşağıdakı məhkumlar müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla):

1.1. Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.2. Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslər;

1.3. bu Qərar qüvvəyə mindiyi günədək, o cümlədən Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı

nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumları;

1.4. Xocalı soyqırımında əlil olmuş şəxslər, həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.5. 1948-1953-cü və 1988-1992-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş şəxslər;

1.6. 1988-1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşmüş şəxslər;

1.7. 1990-cı il 20 Yanvar faciəsində əlil olmuş şəxslər və ya şəhid olmuş şəxslərin yaxın qohumları;

1.8. Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ-nin Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.9. İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ-nin Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, habelə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş şəxslər;

1.10. keçmiş SSRİ dövründə siyasi repressiyaya məruz qalmış, sonradan səlahiyyətli orqanların qərarları ilə bəraət almış şəxslər və onların yaxın qohumları;

1.11. Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş və onlara himayəçilik edən şəxslər (himayəçilik qanunvericiliklə nəzərdə tutulmuş qaydada müəyyən olunmuşdursa);

1.12. qadınlar;

1.13. cinayət törədərkən 18 yaşına çatmamış şəxslər;

1.14. bu Qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər;

1.15. bu Qərar qüvvəyə mindiyi günədək birinci və ya ikinci dərəcə əlilliyi olan şəxslər;

1.16. öhdəsində (himayəsində) yetkinlik yaşına çatmayan övladı, yaxud birinci və ya ikinci dərəcə əlil övladı olan şəxslər, o cümlədən bu Qərarın qüvvəyə mindiyi günədək atalığı, övladlığa götürməsi, qəyyumluğu və himayəçiliyi qanunvericiliklə nəzərdə tutulmuş qaydada müəyyən olunmuş şəxslər.

2. Bu Qərarın 1-ci hissəsində göstərilən şəxslərdən başqa, aşağıdakı məhkumlar cəzalardan azad edilsinlər (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla):

2.1. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.2. bu Qərarın 2.1-ci bəndində göstərilən şəxslərdən başqa, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər;

2.3. bu Qərarın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulan şəxslərdən başqa, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər;

2.4. bu Qərarın 2.2-ci və 2.3-cü bəndlərində göstərilən şəxslərdən başqa, az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər;

2.5. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.6. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasının bu Qərar

qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.7. hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza təyin edilmiş şəxslər;

2.8. islah işləri növündə cəza təyin edilmiş şəxslər;

2.9. ictimai işlər növündə cəza təyin edilmiş şəxslər;

2.10. əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası təyin edilmiş şəxslər;

2.11. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə əsas cəza kimi cərimə cəzası təyin edilmiş şəxslər, habelə əsas və ya əlavə cəza kimi iki min manatdan artıq olmayan miqdarda cərimə cəzası təyin edilmiş və ya bu Qərarın tətbiq edildiyi gün cərimə cəzasının ödənilməmiş hissəsi iki min manatdan artıq olmayan şəxslər;

2.12. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər;

2.13. azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

3. Aşağıdakı məhkumlar, bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla cəzalardan azad edilsinlər:

3.1. bu Qərarın 2.6-cı bəndində göstərilən şəxslərdən başqa, intizam xarakterli hərbi hissədə saxlama cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər;

3.2. bu Qərarın 2.12-ci bəndində göstərilən şəxslərdən başqa, azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

4. Bu Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan şəxslərdən başqa, 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzalarının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olduqda, çəkilməmiş cəza 6 ay azaldılsın (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

5. Bu Qərarın 2.5-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olduqda, çəkilməmiş cəza 1 il azaldılsın (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

6. Bu Qərar əsasında əsas cəzadan azad edilən şəxslər əlavə cəza kimi təyin edilmiş müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

7. Bu Qərar əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluq götürülsün.

8. Bu Qərarın 1.1-1.16-cı bəndlərində göstərilən şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər haqqında təhqiqat və ibtidai istintaq orqanları tərəfindən amnistiya tətbiq olunaraq cinayət təqibi başlanmır, başlanılmış cinayət təqibinə isə xitam verilir (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla).

9. Məhkəmələr:

9.1. icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə bu Qərarın 1.1-1.16-cı bəndlərində göstərilən şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər barəsində cinayət təqibinə xitam verir və ya həmin şəxsləri təyin edilmiş cəzadan azad etməklə ittiham hökmü çıxarır (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2. bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiyanın tətbiq edildiyi

günədək apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə:

9.2.1. bu Qərarın 1-ci, 3-cü və 6-cı hissələrində nəzərdə tutulmuş şəxsləri təyin edilmiş cəzadan azad edir (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2.2. bu Qərarın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsləri təyin edilmiş cəzadan azad edir (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.2.3. bu Qərarın 4-cü və 5-ci hissələrində nəzərdə tutulmuş şəxslərin cəzalarını azaldır (bu Qərarın 10-cu hissəsində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla);

9.3. icraatlarında olan apellyasiya və ya kassasiya şikayətləri (protestləri) üzrə işlərə baxarkən bu Qərarın 9.1-ci və 9.2-ci bəndlərinin müddəalarına müvafiq olaraq amnistiya tətbiq edir.

II. Amnistiyanın tətbiqinə məhdudiyyətlər

10. "Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 1994-cü il 24 fevral tarixli 793 nömrəli Qanununda nəzərdə tutulmuş şəxslər barəsində amnistiya tətbiq edilmir.

11. Bu Qərarın 1-ci, 3-cü, 6-cı və 8-ci hissələri, 9.1-ci bəndi və 9.2.1-ci yarımbəndi aşağıdakı şəxslər barəsində tətbiq edilmir:

11.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulmuş ağır və xüsusilə ağır cinayətlərə, həmçinin Cinayət Məcəlləsinin 101, 115.1, 122.2, 124.1, 124.2, 125, 127.2, 133.2, 136.3, 137, 138.2-138.4, 139.2, 139-1, 140.2, 140.4, 141.4, 142.3, 145.2, 146.2, 150.1, 151, 152, 153, 159.4, 162.2, 162.3, 167-1.3-167-1.5, 167-2.2, 167-3, 168, 168-1.2, 168-1.3, 169.2, 170.1, 170.2, 171.1, 171-1.1, 172, 176-1, 177.1, 177.2, 178.2, 179.2, 180.1, 180.2, 182.1, 183.1, 185.2, 186.2, 188.3, 189-1.4, 192.2, 192.3, 192-1.3, 192-2.1, 192-2.2, 192-2.4, 192-2.5, 193.2, 193.3, 193-1.1, 194.2, 195-2.2, 199.2, 200.4, 200-1.3, 200-2.3, 201.2, 204.1, 205, 205-1, 206.1-206.2, 207, 208, 209.2, 209.3, 213.2, 213.3, 213-1, 214-2, 220.2, 221.2, 221.3, 222.3, 222-1.3, 222-2.2, 223.2, 224, 224-1, 224-2, 225.2, 226.3, 227.1, 227.2, 227-1, 228.1, 228.2, 229.1, 229.2, 232.1, 233, 233-1.1, 233-4.2, 233-4.3, 234.1, 234.2, 234.3, 235.1, 235.2, 236.1, 238.1, 240.1-240.2, 243.2, 244.2, 244-1.2, 245, 247, 248.2, 250.3, 251.3, 252.3, 253.2, 254.3, 255.2, 256.3, 258.3, 259.2, 259.3, 260.2, 260.3, 262.2, 263.2, 263-1.1, 263-1.2, 264, 265.2, 265-1.2, 266.2, 267.3, 268.2, 270-1.3, 271.3, 272.3, 273.4, 281.1, 283, 283-1.4, 284.1, 284-1, 285, 288.1-288.3, 290, 291, 292.2, 292.2-1, 294.2, 294.3, 295.1, 296.2, 297.2, 299.3, 299.4, 301.2, 302.2, 302.3, 304.2, 306, 307.3, 308, 308-1, 308-2.4, 309.1, 312.1, 312-1, 314.2, 314.3, 314-1.1, 314-2.2, 314-3.2, 314-3.3, 315, 316.2, 316-1.3, 317.1, 317.2, 317-1.2, 318, 318-1.2, 319.2, 320, 321.2, 328.2, 328.3, 329.1, 329.2, 330.1-330.3, 332.1-2, 332.2, 335.3, 336, 338.2, 339.2, 340.2, 341.2, 342.1-1, 342.2, 344.1, 346.1, 348.2, 349, 350.2, 351.2, 352.1 və 353.1-ci maddələrində, habelə "Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2006-cı il 7 aprel tarixli 92-IIIQD nömrəli Qanunu ilə sanksiyaları ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.1-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 405-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 610-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-2.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1231-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı

il 5 aprel tarixli 184-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 199-cu maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 199.3-cü maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 315.1-ci və 315.2-ci maddələrində və həmin Qanunla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 335-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 335.2-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

11.2. 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-1-ci maddəsində nəzərdə tutulmuş ağır cinayətlərə, habelə həmin Məcəllənin 69-cu maddəsinin ikinci hissəsi, 93-5-ci maddəsinin birinci hissəsi, 93-6-cı maddəsinin birinci hissəsi, 93-9-cu maddəsinin ikinci hissəsi, 100-cü maddəsinin birinci hissəsi, 113-cü maddəsinin ikinci hissəsi, 114-cü maddəsinin dördüncü hissəsi, 120-ci maddəsinin ikinci hissəsi, 126-cı maddəsi, 171-ci maddəsinin birinci hissəsi, 178-ci maddəsinin ikinci hissəsi, 185-ci maddəsi, 208-ci maddəsinin ikinci və üçüncü hissələri, 220-ci maddəsinin birinci və üçüncü hissələri, 229-cu maddəsinin birinci hissəsində, 241-ci maddəsinin "q" bəndində və 255-1-ci maddəsinin "v" və "q" bəndlərində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

11.3. "Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və digər məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 1998-ci il 7 aprel tarixli 463-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 83-cü maddənin üçüncü və dördüncü hissələri, 88-ci, 88-1-ci, 91-ci maddənin ikinci və üçüncü hissələri, 143-cü maddəsinin üçüncü və dördüncü hissələri, 145-ci, 147-ci maddənin üçüncü hissəsi, həmçinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə bəzi dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 1996-cı il 29 may tarixli 90-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 60-cı, 65-ci və 191-1-ci maddələrlə məhkum olunmuş şəxslər;

11.4. bu Qərar tətbiq olunanadək maddi ziyanı tam ödəməmiş şəxslər;

11.5. təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum olunmuş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər;

11.6. 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən cinayət törətmiş şəxslər;

11.7. cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslər.

III. Amnistiya aktının hüquqi qüvvəsi

12. Bu Qərar qəbul olunduğu gündən qüvvəyə minir.

13. Bu Qərarın 1-7-ci hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş, həmçinin həmin tarixədək qüvvəyə minmiş məhkəmə qərarları əsasında cəza təyin edilmiş və ya şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmiş şəxslər,

habelə bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş şəxslər barəsində tətbiq edilir.

14. Bu Qərarın 8-ci və 9-cu hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək cinayət törətmiş şəxslər barəsində tətbiq edilir.

15. Bu Qərarın 16-cı hissəsində nəzərdə tutulmuş şəxslər istisna olmaqla, uzanan və ya davam edən cinayətlər amnistiya aktı qüvvəyə mindiyi günədək bitmədikdə onları törətmiş şəxslərə amnistiya şamil edilmir.

16. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321.1-ci, 333.1-333.4-1-ci və 334.1-ci maddələrində nəzərdə tutulmuş cinayətləri bu Qərar qüvvəyə mindiyi günədək törətmiş şəxslərə, bu Qərar qüvvəyə mindiyi gündən dörd ay müddətində onların könüllü gəlmələri qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirildiyi və ya həmin şəxslər tutulduğu hallarda, amnistiya şamil edilir.

17. Bu Qərar qüvvəyə mindikdən sonra hökmün və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında məhkumun cəzasının çəkilməmiş hissəsinin azalması və ya şəxsin digər şəkildə hüquqi vəziyyətinin dəyişməsi (bu Qərarın 2.11-ci və 11.4-cü bəndlərində nəzərdə tutulmuş hallar, habelə bu Qərar qanuni qüvvəyə mindiyi günədək qüvvəyə minmiş yeni cinayət qanununun tətbiqi ilə əlaqədar şəxsin vəziyyətinin yaxşılaşması halı istisna olmaqla) həmin şəxs barəsində bu Qərara əsasən amnistiyanın tətbiqi üçün əsas deyildir.

18. Bu Qərarın cəzanın çəkilməmiş hissəsinə dair müddəaları cinayətlərin və ya hökmlərin məcmusu üzrə qəti cəzanın çəkilməmiş hissəsini nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2-ci maddəsi üzrə biri digəri ilə toplanaraq müstəqil icra edilən əsas cəzalardan hər hansı biri bu Qərar qüvvəyə mindiyi gün onun təsiri altına düşmürsə, bu Qərara əsasən amnistiya tətbiq edilmir.

19. Cinayətlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsində ittiham olunan şəxsin, eləcə də cinayətlərin və ya hökmlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsinə görə məhkum edilmiş şəxsin müvafiq olaraq ittiham və ya məhkum edildiyi cinayətlərdən birinə görə amnistiyanın tətbiqi bu Qərarın müddəaları ilə məhdudlaşdırılmışdırsa, ona amnistiya tətbiq edilmir.

20. Bu Qərara əsasən amnistiya tətbiq edilməsi ittiham hökmlərinin və ya digər qərarların qanuniliyinin, əsaslılığının və ya ədalətliliyinin yuxarı instansiya məhkəmələrində mübahisələndirilməsinə mane olmur.

21. Bu Qərar Azərbaycan Respublikasında tanınan xarici dövlətlərin məhkəmələrinin hökmləri ilə məhkum edilmiş və cəzasını Azərbaycan Respublikasında çəkən şəxslərə də şamil edilir.

22. Barələrində amnistiya tətbiq olunmuş çağırışçıların və hərbi qulluqçuların müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış və hərbi xidmət məsələləri qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

IV. Amnistiyanın tətbiqi qaydaları

23. Amnistiya Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinin tələblərinə uyğun olaraq aşağıdakı orqanlar tərəfindən tətbiq edilir:

23.1. cəzaçəkmə müəssisələri - bu Qərarın 1-ci hissəsində, 2.1-ci, 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.2. intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı - bu Qərarın 2.6-cı, 2.7-ci və 3.1-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.3. icra məmurları - bu Qərarın 2.8-ci, 2.9-cu, 2.10-cu və 2.11-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

23.4. təhqiqat və ya ibtidai istintaq orqanları - bu Qərarın 8-ci hissəsində nəzərdə tutulan şəxslər barəsində;

23.5. məhkəmələr - bu Qərarın 2.5-ci, 2.12-ci, 2.13-cü və 3.2-ci bəndlərində, 4-cü, 5-ci, 6-cı və 9-cu hissələrində nəzərdə tutulan şəxslər barəsində.

24. Bu Qərarın 23.1-23.4-cü bəndlərində nəzərdə tutulmuş orqanlar amnistiyanın tətbiq edilməsi barədə qərarları müvafiq prokurorların razılığı

ilə qəbul etməlidirlər.

25. Təhqiqat və ya ibtidai istintaq orqanları amnistiya tətbiq edərkən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş cinayət təqibinə xitam verilməsi qaydalarına riayət etməli, o cümlədən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə müvafiq olaraq barəsində amnistiya tətbiq olunacaq şəxslərin razılığını almalıdırlar.

26. Bu Qərarın 2.5-ci, 2.12-ci, 2.13-cü və 3.2-ci bəndlərində, 5-ci və 6-cı hissələrində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların üzərində nəzarəti həyata keçirən orqanların müraciəti əsasında məhkumun yaşayış yeri üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

27. Bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların cəza çəkdikləri cəzaçəkmə müəssisələrinin müraciəti əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

28. Birinci instansiya məhkəmələrinin icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə amnistiyanın tətbiqi məsələlərinə baxılarkən cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olduqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsinə əsasən cinayət təqibinə xitam verilməsi haqqında qərar qəbul edilir, amnistiya tətbiq edilməklə cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olmadıqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 44.2-ci maddəsinə əsasən şəxsə təyin edilmiş cəzadan onu azad etməklə ittiham hökmü çıxarır.

29. Apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə cinayət prosesi tərəflərinin müraciətinə əsasən hökmü çıxarmış birinci instansiya məhkəmələri tərəfindən baxılır. Bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə bu Qərarın 23.1-23.3-cü bəndlərində, 26-cı və 27-ci hissələrində nəzərdə tutulmuş orqanlar tərəfindən baxılır.

30. Apellyasiya şikayəti və ya protesti verilmiş qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiya həmin şikayətlərə və ya protestlərə apellyasiya instansiyası məhkəmələrində baxılarkən tətbiq edilir.

31. Kassasiya şikayəti və ya protesti verilmiş məhkəmə qərarları üzrə məhkumlara bu Qərara uyğun olaraq amnistiya tətbiq edilməmişdirsə, onların şikayətlərinə və ya protestlərə kassasiya instansiyası məhkəməsində baxılarkən amnistiya tətbiq edilir.

32. Bu Qərarın 26-cı, 27-ci və 29-cu hissələrində nəzərdə tutulmuş qaydada amnistiyanın tətbiqi məsələlərinə baxarkən, məhkəmələr Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üçün nəzərdə tutulmuş tələblərə riayət etməlidirlər.

33. Məhkəmələr tərəfindən amnistiyanın tətbiqi məsələlərinə baxılarkən məhkəmə iclasında müvafiq prokurorun və müdafiə tərəfinin iştirakı ilə bağlı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində müəyyən edilmiş qaydalara riayət edilməlidir.

34. Bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

35. Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər amnistiyanın tətbiqi barədə qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tətbiqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir.

36. Alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 45-ci hissəsində nəzərdə tutulmuş müddətdə baxılmalı, həmin şəxslərin cəzadan azad edilməsi

məsələsi isə müalicə başa çatdıqdan sonra həll edilməlidir (şəxsin zöhrəvi xəstəliklərdən müalicəsini qurtarmasının təsdiqi üçün əsas - tibbi rəy, məhkəmənin alkoqolizmdən və ya narkomaniyadan məcburi müalicə təyin etdiyi şəxslər barəsində isə belə əsas məcburi müalicənin ləğvi və ya məcburi müalicə təyin edilmiş şəxs məcburi müalicədən vaxtından əvvəl azad edilməsi barədə məhkəmənin qərarıdır).

37. Barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən vərəm xəstəliyinə tutulmuş şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada səhiyyə qurumlarının nəzarəti ilə 10 gün müddətində yaşayış yeri üzrə vərəm əleyhinə tibb müəssisələrində qeydiyyata alınır və müalicələrini davam etdirirlər.

38. Anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbir təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 45-ci hissəsində nəzərdə tutulmuş müddətdə baxılmalı, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.2-95.0.4-cü maddələrinə əsasən psixiatriya stasionarlarında məcburi müalicə təyin olunmuş şəxslərin cəzadan azad edilməsi məsələsi isə məhkəmə qərarı ilə psixiatriya stasionarlarında məcburi müalicə ləğv edildikdən və ya dəyişdirilərək məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin edildikdən sonra həll edilməli, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.1-ci maddəsinə əsasən məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin olunmuş şəxslər amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edildikdə qanunvericiliklə müəyyən edilmiş qaydada səhiyyə qurumlarının nəzarəti ilə 10 gün müddətində yaşayış yeri üzrə müvafiq tibb müəssisələrində qeydiyyata alınmalı və müalicələri davam etdirilməlidir.

39. Əvvəllər amnistiya və ya əfvetmə aktları ilə cəzasının müddəti azaldılmış şəxslərə bu Qərar tətbiq edilərkən onların cəzasının çəkilməmiş müddətləri həmin aktlar nəzərə alınmaqla hesablanır.

40. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 175-177-ci maddələrinin tələblərinə uyğun olaraq, bu Qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyasının, onlara yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməlidir.

41. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Qərarın tətbiqi ilə bağlı zərurət yarandıqda amnistiyanı tətbiq edən orqanın müraciəti əsasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izah verir.

42. Amnistiyanı tətbiq edən orqanlar cəzadan azad edilmiş şəxslər barəsində bu Qərarın 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə amnistiyanın tətbiqi barədə qərarın surətini 7 gün ərzində cinayətlərin vahid statistikasını aparan daxili işlər orqanlarına göndərməlidirlər.

43. Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi ilə əlaqədar şəxsin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada şikayət etmək hüququ vardır.

44. Bu Qərarın 23.2-ci bəndində göstərilən "hərbi hissələr" dedikdə, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın çəkildiyi yerlər, bu Qərarın 26-cı hissəsində göstərilən "məhkumların üzərində nəzarəti həyata keçirən orqanlar" dedikdə isə azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslərə nəzarəti həyata keçirən icra məmurları, habelə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti həyata keçirən icra məmurları və müvafiq olaraq hərbi qulluqçular üzərində nəzarəti həyata keçirən hərbi hissələrin və ya müəssisələrin komandanlığı başa düşülür.

45. Bu Qərarın 23.1-23.4-cü bəndlərində nəzərdə tutulmuş orqanlar bu Qərar qüvvəyə mindiyi gündən 4 ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri**
**Sahibə Qafarova**

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# Zəfər Günü münasibətilə Ədliyyə Nazirliyində silsilə tədbirlər keçirilib







**Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində parlaq qələbənin qazanılmasının bir ili tamam olur. Dövlət başçısının 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə 8 Noyabr - Azərbaycan Respublikasında Zəfər Günü təsis edilib.**

Zəfər Günü Ədliyyə Nazirliyində və struktur qurumlarda təntənə ilə geniş qeyd olunub, bu münasibətlə silsilə tədbirlər təşkil edilib, o cümlədən Hərbi Qənimətlər Parkı, habelə "Zəfər Yarmarkası" ilə tanış olunub, ədliyyə könüllüləri Azərbaycan bayraqları ilə yürüş ediblər. Həmçinin, nazirliyin döyüşlərdə iştirak etmiş əməkdaşları mükafatlandırılıb, yaxın ailə üzvü şəhid olmuş və yaralanmış ədliyyə işçilərinin ailələrinə və məhkəmə aparatlarının əməkdaşlarına baş çəkilib, YAŞAT və Qarabağ Dirçəliş fondlarına könüllü ianələr edilib.



Noyabrın 5-də Ədliyyə Nazirliyində Zəfər Gününə həsr olunan yığıncaq keçirilib. Tədbirdən öncə ədliyyə naziri Fikrət Məmmədov və nazirliyin rəhbər heyəti Fəxri Xiyabanda ümum-




Hərbi Qənimətlər Parkı ilə tanışlıq



Ədliyyə könüllülərinin Zəfər yürüşü




Böyük Qələbəyə və bərpa-quruculuq işlərinə həsr olunmuş zal

milli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsini dərin ehtiramla anıblar.

Yığıncaqda Vətən müharibəsinin zəfər salnaməsindən bəhs olunub, bayram münasibətilə hazırlanmış film nümayiş etdirilib. Doğma torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpası uğrunda şəhid olmuş Vətən övladlarının, o cümlədən ədliyyə işçisi Ruhin Xəlilovun işıqlı xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Nazir çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan dövlətinin tarixinin ən şanlı günlərini, yeni inkişaf və dirçəliş dövrünü yaşadığını vurğulayıb. Bildirib ki, "dəmir yumruq" kimi birləşmiş Azərbaycan xalqı doğma Qarabağımızın azadlığı uğrunda aparılmış, hər günü qəhrəmanlıq dastanı olan Vətən müharibəsində Böyük Qələbəni müzəffər xalq, qalib dövlət kimi yüksək qürur hissi ilə qeyd edir.

Bu qələbənin təməlində dövlət başçısının güclü iradəsinin, müstəqil və düşünülmüş siyasətinin, yenilməz sərkərdəlik və diplomatik məharətinin dayandığını bildirən nazir döyüş meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında daim irəliləyən Azərbaycan Ordusunun dünyanı heyran qoyan unikal əməliyyatları ilə torpaqlarımızı işğaldan azad etdiyini vurğulayıb.

Dövlət başçısının xalqa müraciətləri, dünyanın aparıcı medialarına çoxsaylı müsahibələri ilə müharibənin gedişinə güclü təsir etdiyi, zəfər müjdələri ilə xalqımızda və ordumuzda vətənpərvərlik ruhunu daha da yüksəltdiyi bildirilib, Azərbaycanın ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyəti, ordumuza qayğılı münasibəti xüsusilə qeyd olunub.

Tədbirdə Zəfər Gününün həm də müstəqilliyimizin simvolu olan Dövlət Bayrağı Günü ərəfəsinə təsadüf etdiyi, Azərbaycanın üçrəngli bayrağının azad edilmiş ərazilərimizdə ucaldılaraq qürurla dalğalandığı vurğulanıb, Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən dövlət başçısının rəhbərliyi və Birinci vitse-prezidentin fəal iştirakı ilə Qarabağ və Şərqi Zəngəzurda nəhəng bərpa-quruculuq işlərinin aparıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, qısa müddətdə

yol-nəqliyyat, enerji, sosial infrastrukturların yenidən qurulması - bu ərəfədə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizə səfər etmiş Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan ilə birgə Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışı və Zəngəzur dəhlizinin təməlinin qoyulması, habelə tarixi, dini və mədəni abidələrimizin bərpası, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin tətbiqi dövlətimizin qüdrətinin və möhkəm iqtisadi potensialının əyani təzahürü olmaqla bütün dünyada heyrətlə qarşılanır.

Eyni zamanda, Böyük Qələbədən sonra keçirilmiş Zəfər Paradının, ölkə başçısının təşəbbüsü ilə yaradılmış Hərbi Qənimətlər Parkının xalqımızın parlaq Zəfərinin və ordumuzun qəhrəmanlığının təcəssümü olduğu, Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulduğu qeyd edilib, şəhid ailələrinin və qazilərinin yüksək dövlət qayğısı ilə əhatə olunduğu vurğulanıb.

Yığıncaqda respublika Prezidenti tərəfindən Vətən müharibəsi iştirakçılarının, o cümlədən ədliyyə və məhkəmə işçilərinin çoxsaylı medallara layiq görüldüyü qeyd olunub, döyüşlərdə mərdlik və şücaət nümayiş etdirərək şəhid olmuş nazirliyin əməkdaşı I dərəcəli ədliyyə qulluqçusu Ruhin Xəlilovun 4 medalla təltif olunduğu bildirilərək, onlardan "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ədliyyə orqanlarına işə qəbul olunmuş həyat yoldaşına təqdim edilib.

Bayram münasibətilə ədliyyə orqanlarında keçirilən tədbirlərdə ədliyyə işçiləri Vətən müharibəsində Böyük Qələbənin sevincini bölüşüb, dövlət başçısının rəhbərliyi ilə doğma Qarabağımızın tezliklə cənnətə çevriləcəyinə və azad edilmiş torpaqlarımızda həyatın yenidən qaynayacağına əminliyini ifadə ediblər.

Zəfər Günü ilə bağlı həmçinin, nazirliyin muzeyində yeni yaradılmış zalda "Qarabağ Azərbaycandır!" və "Zəfərdən Dirçəlişə" adlı Vətən müharibəsinin 44 günlük salnaməsinə, azad edilmiş torpaqlarda aparılan bərpa-quruculuq işlərinə həsr edilən ekspozisiyalarla tanışlıq olub, video-çarxlar, slaydlar nümayiş etdirilib. Eyni zamanda ədliyyə orqanlarında ağacəkmə və qanvermə aksiyaları keçirilib, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, nazirliyin internet və sosial media səhifələrində məlumatlar paylaşılıb.

**Ölkə Prezidenti cənab İlham Əliyevin ətraf mühitin mühafizəsi, yeni yaşıllıq sahələrinin salınması ilə bağlı tapşırıqlarına uyğun olaraq ardıcıl tədbirlər görülür, bu məqsədlə ənənəvi olaraq ağacəkmə aksiyaları keçirilir.**



Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahədə mühüm layihələrin təşviqi xüsusi qeyd olunmalıdır.

Ölkə rəhbərliyinin bu xeyirxah və nəcib təşəbbüsünü dəstəkləyən ədliyyə işçiləri ağacəkmə aksiyalarına daim fəal qoşularaq ətraf mühitin yaşıllıq zonasına çevrilməsi, vətəndaşların sağlam həyatının təmin olunması məqsədilə bu prosesdə yaxından iştirak edirlər.

Ədliyyə Nazirliyi tərəfindən 8 noyabr - Zəfər Günü münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində noyabrın 6-da Penitensiar xidmətin Zabrat qəsəbəsində yerləşən müəssisələrinin qarşısındakı ərazidə ağacəkmə aksiyası keçirilib.

Böyük həvəslə əməkdaşlar tərəfindən xeyli sayda şam ağacı əkilib.



Mühafizə Alayında bayram konserti

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə Alayında Zəfər günü münasibətilə tanınmış incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı təşkil edilib.**

Mühafizə Alayının şəxsi heyəti və həqiqi hərbi xidmət keçən əsgərlər, həmçinin II Fəxri Xiyabanda şəhidlərimizin əziz xatirələrini yad edib və məzarları önünə gül dəstələri düzüblər. Daha sonra Hərbi Qənimətlər Parkına baş çəkilib.

Bayram münasibətilə xidmətdə fərqlənən və şəhid ailələrinin üzvü olan əsgərlər Alay komandanlığı tərəfindən mükafatlandırılıb.

**Zəfər Günü münasibətilə Ədliyyə Akademiyasında "Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks-hücum əməliyyatları (beynəlxalq hüquqi məsələlər)" kitabının videokonfrans formatında ictimai təqdimatı keçirilib.**




Zəfər Gününə həsr olunan kitab təqdimatı

Nazirliyin və Akademiyanın əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin, alimlərin və ədliyyə könüllülərinin iştirak etdiyi tədbirdə Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov çıxış edərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində xalqımızın Böyük Qələbəsindən bəhs edib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın misilsiz şücaətini qeyd edib, post-konflikt dövründə görülən məqsədyönlü tədbirləri vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları, ölkəmizin əks-hücum əməliyyatları - 44 günlük müharibə ilə bağlı Ədliyyə Akademiyası tərəfindən aparılan elmi-tədqiqat işlərinə toxunularaq Akademiyanın müəllimi, hüquq elmləri üzrə fəlsəfə doktoru Səyyad Məcidov tərəfindən "Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks-hücum əməliyyatları (beynəlxalq hüquqi məsələlər)" kitabının hazırlanaraq nəşr edildiyi diqqətə çatdırılıb.

Hüquq üzrə elmlər doktoru, prof. Əfsər Sadıqovun və hüquq elmləri üzrə fəlsəfə doktoru, dos. Rahim Məmmədovun elmi redaktoru olduğu kitab Ermənistanın hərbi təcavüzünün tarixinə, 2020-ci ildə Gəncə, Bərdə, Tərtər və digər şəhər və rayonlarımıza edilən raket hücumlarının, erməni təcavüzünə qarşı ölkəmizin apardığı 44 günlük əks-hücum əməliyyatlarının beynəlxalq hüquqi tərəflərinə və ermənilərin insanlıq əleyhinə və müharibə cinayətlərinin beynəlxalq və milli məhkəmələrdə mühakimə məsələlərinə həsr olunub.

Tədbirdə əsərin elmi əhəmiyyəti ilə bağlı fikirlər söylənilib, gələcəkdə kitabın müxtəlif xarici dillərə tərcümə edilərək yayımının və bu cür tədqiqatların davam etdirilməsinin vacibliyi qeyd olunub.

# Zəfər Günü münasibətilə elan olunmuş amnistiya aktının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir

## "Dövlətimizin humanist siyasətinin növbəti təzahürü" mövzusunda KİV nümayəndələrinin iştirakı ilə dəyirmi masa





**Noyabrın 11-də Ədliyyə Nazirliyində "Dövlətimizin humanist siyasətinin növbəti təzahürü" mövzusunda kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilib.**

8 Noyabr - Zəfər Günü münasibətilə elan olunan amnistiya aktına həsr olunan tədbirdə nazirliyin, Penitensiar və Probasiya xidmətlərinin məsul şəxsləri, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri iştirak ediblər.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova dəyirmi masada çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyevin humanizm siyasətinə uyğun olaraq ötən müddət ərzində qəbul edilən amnistiya aktları nəticəsində on minlərlə məhkum azadlığa qovuşaraq ailələrinə sevinc bəxş edilib. İndiyədək 11 amnistiya aktı qəbul olunub və 117 min 770 şəxsə şamil edilib. Respublika Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş sonuncu amnistiya aktı da dövlətimizin humanist siyasətinin növbəti təzahürüdür.

Eyni zamanda, bu günədək Azərbaycanda 67 əfvetmə haqqında qərar qəbul olunub, bu da 8774 nəfərə şamil edilib. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən dörd amnistiya aktı 40 min 412 nəfərə şamil olunub.

Bildirilib ki, hazırkı amnistiya qərarı üzrə ədliyyə orqanlarının üzərinə düşən mühüm vəzifələrin vaxtında icrasını təmin etmək məqsədilə ədliyyə naziri tərəfindən dərhal noyabrın 5-də əmr imzalanıb, Qərarın dürüst və mütəşəkkil icrasına gündəlik nəzarətin təmin olunması, habelə amnistiyanın tətbiqi ilə bağlı şikayətlərin operativ, hərtərəfli və prinsipial araşdırılıb qanunamüvafiq tədbirlər görülməsi məqsədilə məsul əməkdaşlardan ibarət Monitorinq qrupu yaradılıb.

Dəyirmi masada çıxış edən nazirliyin Qanunvericilik baş idarəsinin rəis müavini Elçin Nəsibov deyib ki, amnistiya aktının icrası aidiyyəti orqanlar tərəfindən dörd ayda başa çatdırılacaq. Zəfər Günü münasibətilə imzalanan amnistiya aktının fərqi ondan ibarətdir ki, bu akt qanuni qüvvəyə minməmiş hökmlərə və istintaq mərhələsində olan işlərə də aid ediləcək. Akta əsasən, amnistiya ilk dəfə ağır cinayət

törədilməsinə görə verilmiş cəza müddətinin çəkilməmiş hissəsi altı ayadək olan şəxslərə də şamil olunacaq.

Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəisi Malik Ələkbərov qeyd edib ki, hazırkı amnistiya aktı genişmiqyaslı olması ilə digərlərindən seçilir. Bu amnistiya aktının Penitensiar Xidmət üzrə 5800 məhkuma, Probasiya Xidməti üzrə isə 8800 nəfərə şamil olunması gözlənilir. Amnistiya aktı 4 bölmə və 45 hissədən ibarətdir. Birinci bölmədə amnistiyanın şamil edildiyi şəxslərin siyahısı yer alıb. İkinci bölmədə tətbiq edilən məhdudiyyətlər, üçüncü və dördüncü bölmələrdə isə müvafiq olaraq aktın qüvvəyə minməsi və icra prosesi ilə bağlı məlumat göstərilir.

Bildirib ki, amnistiya aktının imzalanmasından bir gün sonra - noyabrın 6-da Penitensiar Xidmət üzrə 36 məhkum azadlığa buraxılıb. Amnistiya aktının 70-dək qadına və yeniyetməyə şamil olunması gözlənilir. "Azadlığa buraxılacaq məhkumların cəmiyyətə adaptasiya ilə bağlı tədbirlər görülür. Həmin məhkumlar reabilitasiya və adaptasiya prosesi çərçivəsində müraciət edərək zəruri yardımlar ala bilərlər. Hər bir məhkum dövlət tərəfindən diqqət mərkəzində saxlanılır", - deyə M.Ələkbərov əlavə edib.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin təşkilat nəzarət idarəsinin rəisi Vüqar Abışov diqqətə çatdırıb ki, amnistiya aktının qəbul edildiyi gündən aidiyyəti üzrə komissiya və işçi qrupu yaradılır. Amnistiyanın şamil ediləcəyi məhkumların siyahısının baş idarəyə təqdim olunması üçün onların şəxsi işləri, əvvəlki məhkumluqları ilə bağlı məlumatlar öyrənilir. Məlumatlar informasiya bazasından istifadə edilərək yoxlanılır. Amnistiya aktının şamil olunduğu, lakin tətbiq edilmədiyi məhkum ola bilməz. Eyni zamanda, ədliyyə nazirinin əmri ilə Penitensiar Xidmətin və ədliyyə orqanları əməkdaşlarının birgə fəaliyyəti ilə ciddi nəzarət həyata keçirilir. Penitensiar müəssisələr üzrə bu günədək 100-dən çox məhkum azad edilib. Cəza müddəti azaldılan məhkumlarla bağlı isə prokurorluğa müraciət edilib.

İctimai Komitənin üzvü, "Konstitusiya Araşdırmaları" Fondunun prezidenti Əliməmməd Nuriyev bildirib ki, 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunmuş amnistiya aktının icrası üçün dörd aylıq müddətin göstərilməsinə baxmayaraq, bu prosesin daha qısa müddətdə icra olunacağına ümid edir. Amnistiya aktlarının tətbiqində sui-istifadə halları ola bilməz. Bu məsələdə Ədliyyə Nazirliyi tərəfindən çox ciddi nəzarət var. Aktın icrası müddətində monitorinqlər aparılacaq və ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək.

## Ədliyyə orqanları tərəfindən amnistiya aktının icrası davam edir

**Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində tarixi Qələbənin birinci ildönümü ərəfəsində qəbul olunan "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın icrası ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən zəruri hazırlıq işləri qabaqcadan həyata keçirilərək amnistiya aktının icrasına dərhal başlanılıb.**

İlk gündə, noyabrın 6-da penitensiar müəssisələrdə cəza çəkən 36 məhkum müəyyən olunan qaydada cəzadan azad edilərək azadlığa buraxılıb.

Dekabrın 1-dək isə, penitensiar müəssisələrdə cəza çəkən 1.787 məhkum barəsində amnistiya aktı tətbiq edilib. Onlardan 34-ü qadın, 2-si yetkinlik yaşına çatmayan, 60-ı isə yaşı 60-dan yuxarı olan şəxslərdir. Artıq 1.391 məhkum azad olunub. Onlardan 1.023 nəfər cəzaçəkmə, 368 nəfər isə məntəqə tipli cəzaçəkmə müəssisələrindən









azadlığa buraxılıblar. Həmçinin 359 məhkum narkomaniyadan məcburi müalicə tədbiri ləğv edildikdən sonra azad olunacaq. Bundan başqa, 64 məhkumun cəza müddəti altı ay azaldılıb.

Bununla əlaqədar Ədliyyə Nazirliyinin, o cümlədən Penitensiar xidmətin nümayəndələri amnistiya aktının təsiri altına düşən məhkumların saxlanıldıqları cəzaçəkmə müəssisələrində olaraq onlara azad olunmaları barədə sənədləri təqdim ediblər.

Həmçinin azadlığa çıxan ehtiyacı olan şəxslərin reabilitasiyası (amnistiya aktında nəzərdə tutulan qaydada) və məhkumluqlarının götürülməsi üçün müvafiq tədbirlər görülüb. Nazirliyin İstintaq idarəsinin icraatında olan işlər üzrə 4 nəfər şəxs barəsində cinayət təqibinə xitam verilib.

***

Amnistiya aktının qəbul olunmasından ötən bir ay ərzində 1.307 nəfər isə azadlıqdan məhrumetmə ilə bağlı olmayan müxtəlif cəzalardan azad edilib.

Nazirliyin Probasiya xidmətinin yerli qurumlarının qərarları ilə 1.158 nəfər, məhkəməyə verilən təqdimatlar əsasında 149 məhkum haqqında amnistiya aktı tətbiq edilib.

Onlardan 161 nəfəri qadın, 1 nəfəri yetkinlik yaşına çatmayan, 84 nəfəri 60 yaşına çatmış, 2 nəfəri Vətən müharibəsində iştirak etmiş məhkumlardır.

Amnistiya tətbiq olunmuş şəxslərdən 870 nəfər islah işləri, 260 nəfər cərimə, 28 nəfər ictimai işlər cəzasından azad edilmiş məhkumlardır.

Bundan əlavə, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərdən 134 nəfər cəzadan azad olunaraq, onlara tətbiq edilmiş elektron qolbaqlar dərhal çıxarılıb, 15 məhkumun isə cəza müddəti 1 il azaldılıb.

***

Amnistiya aktının icrası ilə bağlı vətəndaş cəmiyyəti institutlarının və KİV-lərin iştirakı ilə keçirilən tədbirlərdə azadlığa çıxan şəxslər və onları qarşılamağa gələn ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə görə dövlətimizin başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Azad olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, Azərbaycan dövlətinin qanunlarına əməl edəcəklərinə və layiqli vətəndaş olacaqlarına əminlik ifadə edilib.

Qeyd olunmalıdır ki, noyabrın 5-də qüvvəyə minmiş amnistiya aktının icrasının dörd ay müddətində təmin edilməsi nəzərdə tutulub və nazirlik tərəfindən bu humanist aktın mütəşəkkil icrası ilə bağlı tədbirlər davam etdirilir.

# 22 NOYABR - ƏDLİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR!

## Ədliyyə işçiləri peşə bayramlarını qeyd ediblər





**Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ədliyyə orqanlarında və məhkəmələrdə böyük ruh yüksəkliyi ilə geniş qeyd olunur.**

Bayramla əlaqədar nazirlikdə və struktur qurumlarda silsilə tədbirlər təşkil edilib, o cümlədən ənənəvi olaraq ədliyyə veteranlarına, habelə Vətən müharibəsində yaxın ailə üzvü şəhid olmuş və yaralanmış əməkdaşların ailələrinə baş çəkilib, ədliyyə işçiləri və hakimlər tərəfindən YAŞAT və Qarabağ Dirçəliş fondlarına 600 min manatdan çox könüllü ianələr edilib. Həmçinin, ağacəkmə və qanvermə aksiyaları keçirilib, xalqımızın Vətən müharibəsində zəfər yürüşünə, Azərbaycan ədliyyəsinin şanlı tarixinə və inkişaf dövrlərinə nəzər salınaraq mətbuatda silsilə çıxışlar edilib, nazirliyin internet və sosial media səhifələrində çoxsaylı məlumatlar paylaşılıb.

Peşə bayramı ilə əlaqədar ədliyyə naziri Fikrət Məmmədov və nazirliyin rəhbər heyəti Fəxri Xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar. Akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb, Şəhidlər xiyabanında qəhrəman övladlarımızın əziz xatirəsi anılıb.

Noyabrın 22-də Ədliyyə Nazirliyində xüsusi karantin rejiminin tələbləri nəzərə alınmaqla təntənəli mərasim keçirilib. Tədbirdən əvvəl əbədiyaşar liderimizin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub.

Tədbirdə nazirliyin rəhbər heyəti, ailə üzvü Vətən müharibəsində mərdlik və rəşadət göstərərək şəhid olmuş, həmçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təmsilçiləri olan ədliyyə veteranları və vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.

Mərasimdə ədliyyə işçilərinin builki peşə bayramının müstəqilliyimizin bərpasının 30-cu və Vətən müharibəsində qələbəmizin birinci ildönümləri ilə xüsusilə əlamətdar olduğu qeyd edilərək xalqımızın zəfər salnaməsindən və Azərbaycan ədliyyəsinin keçdiyi yoldan bəhs olunub, bayram münasibətilə hazırlanmış "Zəfərdən ilhamlanıb, "Dəmir yumruqdan" güc alırıq" adlı film nümayiş etdirilib.

Nazir çıxış edərək ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq zəfərin ildönümü və peşə bayramı münasibətilə kollektivi təbrik edib, ümummilli lider Heydər Əliyevin müstəqilliyinə əbədi həyat verdiyi müasir Azərbaycan dövlətinin möhtərəm Prezidentimizin rəhbərliyi ilə hərtərəfli inkişaf yolu keçdiyini, son 18 ildə həyata keçirilən uza-
















qgörən və düşünülmüş siyasətin, ölkəmizin sosial-iqtisadi cəhətdən güclənməsi üzrə görülən davamlı işlərin məntiqi nəticəsi olaraq Vətənimizin ərazi bütövlüyünün təmin edildiyini vurğulayıb.

Bildirib ki, Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən dövlətimizin başçısı Qarabağı və digər ərazilərimizi azad etməklə 30 ildir öz doğma ocaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyən soydaşlarımızın yurd həsrətinə son qoymaqla yanaşı, bölgədə davamlı sülhə, sabitliyə və əməkdaşlığa nail olmaq üçün yeni reallıqlar, imkanlar yaradıb. Bu gün cənab Prezidentin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri və fəal iştirakı ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri nəticəsində doğma torpaqlarımız göz önündə yenidən dirçəlir.

Nazir Vətən müharibəsində və ondan sonrakı post-konflikt dövründə Ədliyyə Nazirliyinin fəaliyyətinə toxunaraq 100-dən çox ədliyyə və məhkəmə işçilərinin də döyüşlərdə iştirak etdiyini, fədakarlıq və şücaət göstərdiklərini vurğulayıb, Azərbaycan həqiqətlərinin, Ermənistanın işğalçılığının və müharibə cinayətlərinin beynəlxalq ictimaiyyətə geniş çatdırılmasında Nazirliyin fəal iştirakını qeyd edib.

Sonra tədbirdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə-hüquq sistemində müasir çağırışlara uyğun aparılan mütərəqqi islahatlardan danışılıb.

Çıxış edən ədliyyə veteranları bayram münasibətilə, xüsusilə doğma torpaqlarımızın azad olunmasına görə sevinclərini bölüşüb, Ali Baş Komandana minnətdarlıqlarını bildirib, doğma Qarabağımızın tezliklə cənnətə çevriləcəyinə və azad edilmiş dədə-baba yurdlarında həyatın yenidən qaynayacağına əminliyini vurğulayıblar.

Vətəndaş cəmiyyətinin nümayəndələri ədliyyə orqanlarının qanunun aliliyinin və insan hüquqlarının qorunmasında xidmətlərini, şəffaflığın, ictimai iştirakçılığın və vətəndaş məmnunluğunun təmin olunmasında nazirliyin səmərəli fəaliyyətini qeyd edib, ədliyyə işçilərinə xoş arzularını ifadə ediblər.

Tədbirin sonunda ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə müraciət qəbul olunub.

Tədbir iştirakçıları həmçinin, nazirliyin muzeyində yeni istifadəyə verilmiş Zəfər bölməsində 44 günlük Vətən müharibəsi salnaməsinə və azad edilmiş torpaqlarımızda aparılan geniş bərpa-quruculuq işlərinə həsr edilən ekspozisiyalarla tanış olublar.

Bütün ədliyyə orqanlarında bayram tədbirləri keçirilib, ədliyyə nazirinin işçilərə təbriki çatdırılıb, vəzifələrinin icrası zamanı fərqlənən əməkdaşlar xidməti qaydada mükafatlandırılıblar.



# TARİXİ QƏLƏBƏMİZİ TƏMİN EDƏN PREZİDENT - XALQ BİRLİYİ AZƏRBAYCANA HƏLƏ ÇOX ZƏFƏRLƏR QAZANDIRACAQ

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

*Ümummilli liderimiz Heydər Əliyevin ədliyyə sahəsinə göstərdiyi böyük diqqət və qayğının təzahürü olaraq 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin qəbulu günü - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib. Ədliyyə işçiləri bu bayramı bizə bəxş etmiş Ulu Öndərimizə dərin minnətdarlıq hissi ilə hər il qeyd edirlər.*

Builki bayram isə xüsusilə əlamətdar olmaqla böyük fəxarətlə keçirilir. Belə ki, ötən ay müstəqilliyimizin bərpa olunmasının 30 illiyi, cəmi bir neçə gün öncə isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın Vətən müharibəsində tarixi Qələbəsinin birinci ildönümü - Zəfər Günü qeyd olunub.

Xalqımızın bu möhtəşəm bayramları sanki bir-birini tamamlayır. Bu il Azərbaycan xalqı ilk dəfə dövlət müstəqilliyinin bərpası gününü öz ərazi bütöv-

lüyünü "Dəmir Yumruq"la bərpa etmiş qalib xalq kimi qeyd edib.

Heç vaxt unudulmur ki, müstəqilliyimizin bərpasının ilk dövründə səriştəsiz idarəçilik, anarxiya və hərc-mərcliyin hökm sürməsi ölkəmizi vətəndaş müharibəsi astanasına gətirmiş, erməni hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, yenicə əldə edilmiş müstəqilliyimizin itirilməsi təhlükəsi yaranmışdı.

Belə bir ağır şəraitdə xalqın təkidli tələbilə 1993-cü ildə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası, cəsarətli və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi böyük təhlükələrdən qurtararaq müstəqilliyimizi dönməz etməsi daim böyük ehtiramla xatırlanır.

Məhz Dahi Öndərin misilsiz dövlət idarəçiliyi məharəti nəticəsində ölkəmizdə qanunçuluq, ictimai-siyasi sabitlik bərqərar olunub, neft strategiyasının təməli qoyularaq "Əsrin müqaviləsi" imzalanıb, demokratik hüquqi dövlət quruculuğuna başlanaraq, ictimai həyatın bütün sahələrində, o cümlədən hüquqi sahədə köklü islahatlar aparılıb.

Ümummilli Lider müstəqil və sabit inkişaf edən Azərbaycan dövlətini yaratmaqla yanaşı xalqımız və dövlətimiz qarşısında daha bir əvəzsiz xidmət göstərib - milli dövlətçilik məktəbi formalaşdıraraq xalqımızın gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirib.

2003-cü ildə Ulu Öndər xalqa müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün tam əminliklə söyləyə bilərik ki, möhtərəm Prezidentimiz bu inamı xalqın dəstəyi ilə uğurla gerçəkləşdirdi, Azərbaycanı dünyada yüksək nüfuza sahib ölkəyə, etibarlı tərəfdaşa və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevirdi. Xüsusilə hər bir azərbaycanlının ən ümdə arzusunu reallığa çevirərək müqəddəs torpaqlarımızı düşmən tapdağından azad etdi.

Erməni işğalına son qoyan Vətən müharibəsi xalqımızın haqq, ədalət uğrunda mübarizəsinin təcəssümü olaraq müstəqillik tariximizə qızıl hərflərlə yazılıb. Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı ədaləti bərpa etmək, öz hüququnu təmin etmək, dövlətini, dövlətçiliyini qorumaq uğrunda daim mübarizə aparıb. 2020-ci il sentyabrın 27-də xalqımızın mənfur düşmənin hərbi təxribatlarına cavab olaraq başladığı haqq savaşında olduğu kimi. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq".

44 gün davam edən Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan dəmir iradəsi, yenilməz sərkərdəliyi və bənzərsiz diplomatik məharəti ilə bütün dünyaya göstərdi və sübut etdi ki, Azərbaycan haqlı tərəfdir və torpaqlarını işğaldan azad etməyə, zəfər çalmağa qadir, güclü ordusu var.

Təsadüfi deyil ki, Azərbaycan Ordusunun Vətən müharibəsində unikal əməliyyatları dünya hərb tarixinə düşərək bu gün dərindən öyrənilir, tədqiq edilir.

Xalqı zəfərə aparan ən vacib məqam isə, ilk növbədə, qətiyyətli liderin, orduya layiqli komandanlıq etməyi bacaran, səriştəli, dünya siyasətinə dərindən bələd olan, nəyi nə zaman necə etmək olduğunu yaxşı bilən bir rəhbərin olmasıdır. Bütün bu xüsusiyyətlər məhz Prezident İlham Əliyevdə cəmləşib. Azərbaycan xalqı xoşbəxtdir ki, həyatını müasir müstəqil dövlətimizin hərtərəfli davamlı tərəqqisinə həsr edən, 30 illik erməni işğalına son qoyaraq əzəli torpaqlarımızı, o cümlədən Qarabağın tacı olan Şuşanı azad edərək parlaq Qələbə qazanan Müzəffər Ali Baş Komandanı var.

Xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətləri olan dahi öndər Heydər Əliyev müstəqilliyimizin xilaskarı olduğu kimi, onun siyasi varisi Prezident İlham Əliyev də düşmən üzərində Azərbaycanın çoxəsrlik tarixində bənzəri olmayan Zəfər qazanaraq adını doğma torpaqlarımızın xilaskarı kimi tariximizə əbədi həkk etdirib.

Ümummilli Liderin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən dövlətimizin başçısı 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ iqtisadi zonasını yaradaraq qondarma Dağlıq Qarabağ adlı ərazi vahidini birdəfəlik unutdurub, dədəbaba torpağımız olan Zəngəzurun şərq hissəsinin tarixi adını özünə qaytarıb.

"Dəmir yumruq" əməliyyatına rəhbərlik edən Azərbaycan

Prezidenti həm də diplomatiya cəbhəsində, siyasət meydanında, informasiya savaşında "dəmir məntiqi" ilə döyüşərək xalqa müraciətləri, dünyanın aparıcı medialarına çoxsaylı müsahibələri ilə müharibənin gedişinə güclü təsir edib, Zəfər müjdələri ilə xalqımızda və ordumuzda vətənpərvərlik ruhunu daha da yüksəldib. Eyni zamanda, tarix boyu ölkəmizə qarşı torpaq iddialarından əl çəkməyən Ermənistanın yalan üzərində qurulmuş ideologiyasını, təbliğatını məhv edib.

Azərbaycan Prezidenti böyük intellektin, sarsılmaz iradənin, güclü qətiyyətin tələb olunduğu hər yerdə idi - diplomatiya cəbhəsində, siyasət meydanında, informasiya savaşının ən ön cərgəsində…

Həm Vətən müharibəsinin gedişinə, həm Qarabağın qədim tarixinə, həm də münaqişənin 30 illik tarixinə dair elə bir detal, hadisə, ideya, məqam yox idi ki, Prezident İlham Əliyev 44 gün ərzindəki çıxış, müraciət, görüş və müsahibələrində ona toxunmamış, münasibət bildirməmiş, aydınlıq gətirməmiş olsun.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu şərəfli dönəmdə Müzəffər Ali Baş Komandanın ən sadiq silahdaşı kimi yorulmaz fəaliyyət göstərib, xalqımızın ədalətli mübarizəsi barədə həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb, onun vətənpərvər çağırış və müraciətləri hər birimizi milli maraqlarımız naminə düşmənlə mümkün platformalarda, o cümlədən informasiya məkanında mübarizəyə səfərbər edib.




Müzəffər Ali Baş Komandan Qarabağı və digər ərazilərimizi azad etməklə doğma ocaqlarına qayıdacaqları günü 30 ildir səbirsizliklə gözləyən soydaşlarımızın yurd həsrətinə son qoymaqla yanaşı, bölgədə davamlı sülhə, sabitliyə və əməkdaşlığa nail olmaq üçün yeni reallıqlar, imkanlar yaradıb.

Vətən müharibəsinin başladığı andan Azərbaycan xalqının yanında olan qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün türk xalqının, yüksək səviyyəli rəsmi şəxslərinin ölkəmizə mənəvi və siyasi dəstəyi xüsusi qeyd olunmalıdır. Ötən dövrdə Türkiyə Prezidentinin azad edilmiş torpaqlara səfərləri, iyun ayında Şuşada Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanması ölkələrimizin ümumi maraqlarının və təhlükəsizliyinin qorunmasına xidmət edib.

Bu günlərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının qərarı ilə ərazilərimizin işğaldan azad edilməsini və ərazi bütövlüyümüzün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi hər birimizdə hədsiz qürur və sevinc hissi yaşadıb.

Şanlı tariximiz olan İkinci Qarabağ müharibəsindən bir il ötür və noyabrın 8-də Şuşanın işğaldan azad olunmasını böyük Zəfər bayramı kimi qeyd edən Azərbaycan dövləti azad edilmiş torpaqlarda intensiv bərpa-quruculuq işləri aparır. Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri və fəal iştirakı ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri nəticəsində doğma torpaqlarımız göz önündə yenidən dirçəlir.

Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə yol-nəqliyyat, enerji, sosial infrastruk-

turların qurulması - bu yaxınlarda Prezident İlham Əliyev tərəfindən Zəfər yolunun, ölkəmizə səfər etmiş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə Füzuli Beynəlxalq Hava Limanının açılışı, Zəngəzur dəhlizinin təməlinin qoyulması, habelə tarixi, dini və mədəni abidələrimizin bərpası, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin tətbiqi dövlətimizin qüdrətinin və möhkəm iqtisadi potensialının əyani təzahürü olmaqla bütün dünyada heyrətlə qarşılanır.

Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycanın üçrəngli bayrağı azad edilmiş doğma torpaqlarımızda vüqarla dalğalanır, mədəniyyət paytaxtımız Şuşada yenidən "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri keçirilir, Vətən müharibəsində qələbəmizin sevinci yaşanır.

Zəfər Günündə Şuşada, Cıdır düzündə keçirilmiş tədbirdə Müzəffər Ali Baş Komandan çıxış edərək deyib: "Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq".

Şübhəsiz ki, ölkəmizin şanlı Qələbə qazanmasının təməlində Azərbaycan Prezidenti İlham Əliyevin ölkə Prezidenti seçildiyi ilk gündən həyata keçirdiyi uzaqgörən və düşünülmüş siyasəti dayanır.

Müstəqilliyimizin 30-cu ildönümü ilə bağlı xalqa müraciətində Prezident İlham Əliyevin vurğuladığı kimi, uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olub.

Aparılan uğurlu daxili və xarici siyasət nəticəsində son 18 ildə respublikamızın iqtisadiyyatı və müdafiə sənayesi daim intensiv inkişaf etdirilib, qüdrətli Milli Ordu yaradılıb, etibarlı xarici tərəfdaşların sayı artıb. Bununla yanaşı Azərbaycan sivil, multikultural, sülhpərvər və sabit inkişaf edən mütərəqqi dövlət kimi beynəlxalq aləmdə yüksək nüfuz qazanıb.

Təsadüfi deyil ki, BMT Təhlükəsizlik Şurasının torpaqlarımızın işğaldan azad olunması ilə bağlı qəbul etdiyi 4 qətnamə ilə yanaşı, bu illər ərzində İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası və s. nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycan torpaqlarının işğalı faktını, habelə 15-dən çox ölkə, eləcə də ABŞ-ın ştatlarının yarıya qədəri Xocalı soyqırımını tanıyıb.

Bütün bunlar beynəlxalq aləmdə Azərbaycanın haqlı mövqeyinin formalaşmasına və bugünkü qələbəmizin möhkəm bünövrəsinin yaradılmasına rəvac verib.

Ötən illər ərzində elə bir sahə olmayıb ki, dövlətimizin başçısının rəhbərliyi ilə orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. Bu illər ərzində ümumi daxili məhsul üç dəfədən çox artıb, işsizliyin səviyyəsi 5 faizədək aşağı düşüb, ölkəmizin iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə qoyulub.

Ölkəmizin iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, o cümlədən dünyanın ən islahatçı 10 ölkəsindən birinə çevrilməsi, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, kosmik kluba daxil olması müstəqilliyimizin bəhrəsi olmaqla dövlət başçısının məqsədyönlü siyasətinin bariz təzahürü olub.

Yüksək intellekti, praqmatik düşüncəsi və müstəqil siyasəti ilə fərqlənən Azərbaycan Prezidenti ölkənin siyasi, iqtisadi imkanlarını genişləndirməklə respublikamızın beynəlxalq arenadakı mövqelərini də möhkəmləndirib. Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib, BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edib. Azərbaycanın Hərəkata Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu və səmərəli sədrliyinə verilən qiymətin təzahürü olaraq sədrliyimizin müddəti 2023-cü ilin sonuna qədər uzadılıb.

Azərbaycan həm də ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi edən ölkə kimi tanınır.

Dövlətimizin başçısının müasir çağırışlara uyğun həyata keçirdiyi hərtərəfli islahatlarda, mühüm layihələrin müvəffəqiyyətlə reallaşdırılmasında, humanizm, tolerantlıq ideya və

prinsiplərinin uğurla inkişaf etdirilməsində, dünyamiqyaslı mühüm tədbirlərin və mötəbər beynəlxalq forumların yüksək səviyyədə təşkil olunması və keçirilməsində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Vətən müharibəsi günlərində ədliyyə işçiləri də səylərini əsirgəməyiblər. Hərbi vəziyyət elan olunduqdan dərhal sonra nazirlik gücləndirilmiş iş rejiminə keçmiş, fəaliyyətin digər hüquq-mühafizə orqanları və aidiyyəti təşkilatlarla sıx əlaqəndirilməsi, fövqəladə hallar barədə operativ məlumatlandırmanın təşkili, penitensiar müəssisələrin, informasiya resurslarının təhlükəsiz fəaliyyəti və onların mühafizəsi üzrə təxirəsalınmaz tədbirlər görülüb.

Həmçinin nazirliyin tibb xidmətinin həkimləri döyüş bölgəsinə ezam edilib, ədliyyə və məhkəmə orqanlarının 100-dək əməkdaşı hərbi xidmətə, o cümlədən könüllü kimi yollanaraq, yüksək vətənpərvərlik nümunəsi göstəriblər. Döyüşlərdə iştirak edən əməkdaşlarımız arasında təəssüf ki, yaralanan və qəhrəmancasına şəhid olanlar da var. Nazirlik tərəfindən onların hər birinin və ailə üzvlərinin qayğıları ilə maraqlanılaraq hərtərəfli dəstək göstərilir.

Vətən müharibəsinə könüllü yollanaraq mərdlik və şücaət göstərib şəhid olmuş nazirliyin icra baş idarəsinin əməkdaşı Ruhin Xəlilovun xatirəsinə Ədliyyə Tarixi Muzeyində, əvvəllər işlədiyi yerli qurumlarda xüsusi



guşələr yaradılıb, xidməti kabinetində muzey təşkil olunub. Şəhid ədliyyə işçisinin ailəsi və azyaşlı övladları qayğımızla əhatə olunub, onun həyat yoldaşı ədliyyə orqanlarına işə qəbul edilib.

Müharibə dövründə nazirlik, həmçinin cəbhəboyu rayonların sakinləri üçün də yardımlar təşkil etmiş, onların qayğılarına xüsusi həssaslıqla yanaşılaraq videoformatda qəbullar keçirilib, qaldırılan məsələlərin dərhal həll edilməsi üzrə tədbirlər görülüb.

Ədliyyə işçiləri və hakimlər müharibənin ilk günlərindən ordumuza, yaralılarımıza və şəhid ailələrinin qayğılarına dəstək məqsədilə könüllü olaraq 4,5 milyon manatdan çox, o cümlədən peşə bayramı ərəfəsində "YAŞAT" və Qarabağ Dirçəliş fondlarına ianələr edib, yüzlərlə əməkdaş qanvermə aksiyalarında iştirak ediblər.

Ölkəmizə qarşı hərbi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, Ermənistanın beynəlxalq müstəvidə məsuliyyətə cəlb olunmasının təşviqi istiqamətində də Ədliyyə Nazirliyi tərəfindən məqsədyönlü işlər həyata keçirilib, Azərbaycan, ingilis və rus dillərində "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması yaradılaraq daim zənginləşdirilib, müxtəlif saytlara inteqrasiyası təmin olunub. Bu platformadan çoxminli istifadəçi yararlanıb.

Nazirlik tərəfindən, həmçinin 80-ə yaxın ölkənin Ədliyyə nazirliklərinə, xarici tərəfdaşlara və nüfuzlu beynəlxalq təşkilata ümumilikdə 450-dək məktub göndərilib, xarici ölkələrin səfirləri ilə görüşlər təşkil olunub, ərazilərimizin işğalı, erməni vandalizmi, müharibə cinayətləri, azərbaycanlıların etnik təmizləməyə və soyqırımına məruz qalması vurğulanıb, xalqımızın haqlı mövqeyi diqqətə çatdırılıb.

Avropa Şurası ədliyyə nazirlərinin konfransında ermənilərin insanlıq əleyhinə və müharibə cinayətləri təfsilatı ilə Avropa Şurası Baş katibinin, Avropa Şurası Parlament Assambleyasının, Avropa İnsan

Hüquqları Məhkəməsinin və digər ixtisaslaşmış qurumların rəhbərlərinin, habelə Avropa İttifaqı ədliyyə komissarının və bütün üzv dövlətlərin ədliyyə nazirlərinin diqqətinə çatdırılıb.

Zəfər Gününün birinci ildönümü ərəfəsində dövlətimizin başçısının təşəbbüsü ilə Milli Məclis tərəfindən "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın qəbul olunması xalqımızın qələbə sevincinə əlavə sevinc qatıb. Ümummilli Liderimizin ölkəmizdə əsasını qoyduğu humanizm siyasətinin davamı olaraq qəbul edilmiş bu amnistiya aktı tətbiqi dairəsinin genişliyinə görə bütün digər belə aktlardan fərqlənir. Belə ki, o həm istintaq mərhələsində, həm də məhkəmədə olan işlərə şamil olunur. Bununla yanaşı, ədliyyə orqanları, o cümlədən penitensiar və probasiya xidmətləri tərəfindən amnistiyanın 15 minə qədər şəxsə tətbiq olunması gözlənilir.

Ədliyyə Nazirliyi üzrə amnistiya aktının mütəşəkkil və dürüst icrasının təmini məqsədilə dərhal müvafiq əmr imzalanıb, onun icrasına gündəlik nəzarət təşkil olunub, bu barədə müraciətlərin çevik araşdırılması üçün monitorinq qrupu yaradılıb, digər konkret tədbirlər görülüb.

Bunun nəticəsidir ki, nazirlik tərəfindən elə ilk gündən amnistiyanın tətbiqinə başlanıb. Amnistiya indiyədək 1300-dək şəxsə şamil olunub.

Amnistiya aktının humanist mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədilə nazirliyin məsul əməkdaşlarının iştirakı ilə dəyirmi masa keçirilib. Böyük ictimai marağa səbəb olan tədbirdə verilmiş açıqlamalar barədə KİV-lərdə və internet resurslarında 300-dək məlumat yayımlayıb.

Ümumiyyətlə, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi üzrə tədbirlər çərçivəsində dövlət başçısının təşəbbüsü ilə son illər ərzində cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək bir çox əməllər dekriminallaşdırılıb, azadlıqdan məhrum etməyə alternativ cəzalar müəyyən edilib, bəzi cəzalar yüngülləşdirilib, azadlığın məhdudlaşdırılması yeni cəza növü təsbit olunub.

Bu dəyişikliklər nəticəsində 2200 məhkum cəzadan tamamilə azad edilib, 3500 məhkumun isə cəza müddəti azaldılıb.

Pandemiya başlanandan dərhal sonra risk qrupuna daxil olan yaşı 65-dən yuxarı məhkumların tam əksəriyyəti ötən il Azərbaycan Prezidenti tərəfindən əfv olunub. Eyni zamanda, 1500 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirləri dəyişdirilib. Bu il Novruz bayramı ərəfəsində imzalanmış əfv Sərəncamı isə daha genişliyi ilə fərqlənərək 625 nəfərə şamil olunub.

Ölkəmizdə uzun illər ərzində formalaşmış möhkəm ictimai-siyasi və sosial-iqtisadi bünövrə, tarixi torpaqlarımızın işğaldan azad edilməsi qarşıdakı illərdə sistemli və davamlı islahatlara əlavə imkanlar yaradıb. Müasir dünyamızda isə islahatları qabaqcıl texnologiyalar tətbiq edilmədən təsəvvür etmək mümkün deyil. Eyni zamanda, qlobal bəlaya çevrilmiş koronavirus pandemiyası şəraiti müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişafını şərtləndirib.

Bununla əlaqədar Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəetməsində rəqəmsal təşəbbüslər həyata keçirilir, bu sahədə normativ aktlar və dövlət proqramları qəbul olunur. Təsadüfi deyil ki, rəqəmsal cəmiyyət dövlətimizin başçısının bu ilin fevralında təsdiq etdiyi Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərindən biri kimi müəyyənləşdirilib.

Ədliyyə və məhkəmə sahəsi də müasir informasiya texnologiyalarının tətbiqi ilə inkişaf edir, mütərəqqi islahatlar aparılır, pandemiya şəraitində ədliyyəyə əlçatanlığın təmini məqsədilə innovativ həllərdən geniş istifadə edilir.

Hazırda "Elektron hökumət" sisteminin fəal iştirakçısı olan Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlara 35-dək müxtəlif elektron xidmətlər göstərilir. Son 5 ildə onlardan istifadə edənlərin sayı 15 milyonu xeyli ötüb.

Nazirlik tərəfindən aparılan və on minlərlə normativ sənədi ehtiva edən Hüquqi aktların vahid elektron bazası vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. Təkcə bu il ərzində həmin elektron resursdan istifadələrin sayı 4 milyonu keçib.

Eyni zamanda, "Elektron notariat" innovasiyaların tətbiqi üçün geniş imkanlar açıb. Həmçinin rəqəmsallaşdırmanın yeni

В целом по отрицательным мотивам из судебной системы отстранены 167 судей, в том числе в порядке дисциплинарного наказания, по результатам оценки деятельности, ввиду непродления срока их полномочий.

Есть у нас определенные проблемы и с этическим поведением некоторых судей, за что также привлекаем к дисциплинарной ответственности. Придавая важное значение этому вопросу, одним из первых разработанных нами нормативных актов, регламентирующих деятельность судей, являлся Кодекс этического поведения, изучение которого обязательно входит в программу обучения. Кроме того, уделяя внимание эстетическому воспитанию кандидатов в судьи, мы включаем в программу обучения посещение музеев, театров и т.д.

Говоря о других проблемах, следует отметить, что улучшение доступа к правосудию, а также развитие экономического оборота привели к резкому увеличению количества дел гражданского характера. За последние пять лет в разные годы число рассмотренных судами дел доходило и даже превышало 500 тысяч. Временами некоторым судьям приходилось в день рассматривать до 30 дел. Конечно, такая загруженность отражалась на качестве, недостатки и упущения здесь были предсказуемы.

Для решения этой проблемы приняты законодательные и практические меры по разгрузке судов. Здесь можно выделить внесудебное электронное рассмотрение дел в порядке приказного производства, учреждение упрощенного производства по определенным категориям дел, совершенствование института представительства, передача

некоторых несущественных судебных полномочий другим органам, дифференциация пошлин и др.

Наряду с этим известным Указом президента страны на одну треть или 200 единиц было увеличено число судей в стране. Аналогичные решения принимались и ранее, в том числе каждому судье был выделен штат помощника, что, безусловно, отразилось на качестве и быстроте рассмотрения дел.

Сегодня одна из самых насущных задач - это заполнение судейских вакансий, и этот процесс идет не в ущерб качеству.

К слову, наша процедура отбора судей была изучена международными структурами, и в результате Советом Европы и Евросоюзом как модель лучшей практики по прозрачности была рекомендована другим странам. Думаю, в азербайджанском обществе уже давно сложилось свое мнение об объективности этого процесса.

Чтобы ускорить процесс заполнения вакансий за счет молодых юристов, обладающих глубокими знаниями и высокими моральными качествами, был усовершенствован процесс отбора - документы стали приниматься непрерывно, а на экзаменах было обеспечено применение современных технологий - кандидаты сдавали тест на компьютере, после чего немедленно объявлялись результаты.

Кроме тестов кандидаты в судьи сдают письменный и устный экзамены, после чего они допускаются к многомесячному учебному курсу с практикой в судах, а затем опять сдают экзамены.

Уже в начале этого года 44 человека, успешно прошедшие конкурсный отбор, распоряжением президента страны были назначены судьями в различные суды первой инстанции. Нас радует, что первичные отзывы об их деятельности положительные и они не вызывали нареканий. Аналогичные надежды мы питаем и к остальным 230 кандидатам, которые сейчас находятся на различных этапах конкурсного отбора.

**- А сколько представителей нового поколения представлено в судейском составе, сколько молодых среди нынешних судей? Идет ли процесс смены поколений?**

- Более 75% всего судейского корпуса - это юристы нового поколения, отобранные на основе такого прозрачного конкурса, а подавляющее большинство отобранных за последнее время судей - это молодые люди, причем растет интерес женщин к судебной системе, и как показатель - 60% кандидатов на последнем отборе составляют именно женщины.

Кроме того, за последний год в судебной системе произведены серьезные кадровые перестановки, в том числе в руководстве всех вышестоящих судов, куда назначены более молодые, профессионально подготовленные кадры. И эти меры уже дают о себе знать.

Здесь хотел бы привести некоторые статистические данные, которые беспристрастны. По делам гражданского характера в 80% случаев стороны согласились с итоговым решением суда и не обжаловали его. В целом решения по этой же категории дел в 95% случаев оказались законными и не были изменены вышестоящими судами, а по уголовным делам этот показатель составляет 91%.

Хотя все сказанное создает радужное впечатление, но это абсолютно не дает нам повода для спокойствия. Люди все еще порой встречаются с несправедливостью, волокитой и другими нарушениями.

Именно поэтому в формате видеоконференции было проведено специальное совещание со всеми руководящими работниками судов, где состоялся очень откровенный и в чем-то нелицеприятный разговор о недостатках и неотложных мерах по их устранению, с тем чтобы в соответствии с рекомендациями господина президента обеспечить судебную деятельность на качественно новом уровне и завоевать должное доверие общества.

# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib






**Ölkə Prezidenti cənab İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, bu zaman şəhid ailələrinin və hərbçilərin qayğılarına xüsusi həssaslıqla yanaşılır.**

Pandemiya şəraitinin davam etməsi nəzərə alınaraq vətəndaşların müraciətlərinə elektron qaydada baxılır, müasir İKT tətbiq olunmaqla videoformatda qəbulların keçirilməsi davamlı xarakter alıb.

Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən noyabrın 30-da paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşların videoqəbulu keçirilib.

Regional ədliyyə idarələri vasitəsilə keçirilən qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib, onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə, o cümlədən şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılaraq araşdırılması üçün nəzarətə götürülüb. Qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlərin görülməsi üçün nazirliyin qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar onların müraciətlərinə və qayğılarına hər zaman diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə edib, videoqəbulun təşkilindən məmnunluqlarını bildiriblər.

# Azərbaycan nümayəndəsi Avropa Şurası Ekspertlər Komitəsinin rəhbərliyinə seçilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda cinayətkarlığa qarşı qəti mübarizə aparılır, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir, o cümlədən Avropa Şurasının Cinayət məsələlərində əməkdaşlığa dair Avropa Konvensiyalarının (ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım, məhkumların verilməsi və s. haqqında) icrası üzrə Ekspertlər Komitəsinin (PC-OC) işində yaxından iştirak edilir.**

Qırx ildir fəaliyyət göstərən, Avropa Şurasının bütün 47 üzv dövlətinin, eyni zamanda müşahidəçi olan ABŞ, Meksika, Çili, İsrail, Koreyanın və beynəlxalq təşkilatların ekspertlərinin bir araya gəldiyi Ekspertlər Komitəsi cinayət işlərində əməkdaşlıq məsələlərini tənzimləyir, təcrübə mübadiləsi aparır, Avropa konvensiyalarının tət-

biqi zamanı rast gəlinən praktiki problemlərin həllinə və yeni tendensiyalara dair standartlar işləyib hazırlayır və onları qəbul etmək üçün Nazirlər Komitəsinə təqdim edir.

Azərbaycan Ekspertlər Komitəsində fəal təmsil olunaraq bu sahədə səlahiyyətli orqan olan Ədliyyə Nazirliyinin nümayəndəsi Komitənin üzvü kimi onun işinin təkmilləşdirilməsinə və əməkdaşlığın inkişaf etdirilməsinə dair təşəbbüslər irəli sürür, Komitənin tədbirlərində məruzəçi qismində çıxışlar edir, qurum tərəfindən sənədlərin hazırlanması, həmçinin onların bəzilərinin Azərbaycan dilinə tərcümə olunmasında, eləcə də işçi qruplarda yaxından iştirak edir.

Ekspertlər Komitəsinin bu günlərdə Strasburqda hibrid formatda keçirilmiş 80-cı plenar iclasında Avropa konvensiyalarının və Avropa Məhkəməsinin presedentlərinin tətbiqi üzrə yeniliklər, Avropa İttifaqı Prokurorluq Ofisi (EPPO) ilə əməkdaşlıq və digər məsələlər müzakirə olunub, Komitənin Azərbaycandan olan üzvü, Ədliyyə Nazirliyinin məsul əməkdaşı Adil Əbilov






tərəfindən aidiyyəti təkliflər irəli sürülərək onlar qəbul olunub. Eyni zamanda Böyük Britaniya, ABŞ və Almaniya nümayəndələri ilə görüşlər keçirilərək ekstradisiya və hüquqi yardımla bağlı konkret işlər üzrə müzakirələr aparılıb.

Tədbir çərçivəsində PC-OC-un rəhbərliyinə yeni seçkilər keçirilib. Komitənin sədri vəzifəsinə 10 ildən çox qurumun rəhbərliyində təmsil olunan Portuqaliyanın nümayəndəsi seçilib. Azərbaycanın Komitədə səmərəli təmsilçiliyi və verdiyi dəyərli töhfələr nəzərə alınaraq, nazirliyin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi A.Əbilov isə PC-OC-un sədr müavini vəzifəsinə seçilib.

Respublikamızın belə bir mühüm qurumun rəhbərliyində təmsil olunması dövlətimizin beynəlxalq aləmdə nüfuzunun daha bir əyani təzahürüdür.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib

**Ədliyyə Nazirliyinin bölgələrdə yerləşən icra və probasiya, habelə qeydiyyat qurumlarının hazırlıqlı gənc hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə davam edən müsabiqə üzrə növbəti test imtahanı keçirilib.**

COVİD-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tələblərinə əməl olunmaqla müsabiqədə iştirak üçün müraciət etmiş ilk 95 namizədlə test imtahanı Dövlət İmtahan Mərkəzi ilə birlikdə noyabrın 26-da fərdi qaydada, kompüter vasitəsilə keçirilib.



Test imtahanında iştirakla bağlı ərizələrin qeydiyyatı elektron xidmət vasitəsilə aparılmaqla namizədlərə yalnız müvafiq ərizə təqdim etmələri kifayət olub. Namizədlərin təxminən yarısı regionların, digər yarısı isə ölkəmizin böl-

gələrində işləmək istəyən paytaxt sakinləridir, əksəriyyəti əmək fəaliyyətinə ilk dəfə ədliyyə orqanlarında başlamaq istəyən gənclər və hər üç nəfərdən biri qadınlardır.

İmtahanı vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri izləyib, həmçinin tədbirin gedişi nazirliyin internet səhifəsi (www.justice.gov.az) vasitəsilə "on-line" rejimində birbaşa canlı yayımlanıb.

İmtahanın nəticələrinə dair namizədlərə yerindəcə arayış təqdim olunub və yekuna görə 46 nəfər müvəffəqiyyət qazanıb. Siyahı nazirliyin və DİM-nin (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib.

Uğur qazanmış namizədlərin diqqətinə çatdırılır ki, müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün onlar qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 gün ərzində, saat 9-dan 18-dək Ədliyyə Nazirliyinin Kadrlar idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər. Kadr sənədlərinin siyahısını və müvafiq nümunələri nazirliyin internet səhifəsindən əldə etmək mümkündür.

Xatırladırıq ki, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər növbəti mərhələyə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

Eyni zamanda qeyd olunur ki, hazırda nazirliyin bölgələrdəki yerli qurumlarında işləmək arzusunda olan ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşlarının ərizələrinin qəbulu davam edir (www.exidmet.justice.gov.az) və müvafiq sayda namizəd qrupu formalaşdıqca növbəti test imtahanı keçiriləcəkdir.

Namizədlər üçün imtahanlara mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə nazirliyin Ədliyyə Akademiyasında davamlı hazırlıq kursları təşkil olunur (Bakı şəhəri, Vidadi küçəsi 158, telefon: 493-71-31).

Əlavə informasiyanı nazirliyin internet səhifəsindən və (012) 538-01-62, (012) 538-08-85 nömrəli telefonlar vasitəsilə almaq olar.

# Hakimliyə namizədlərlə test imtahanı

**Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə dövlət başçısının tapşırıqlarına əsasən görülən tədbirlər çərçivəsində hakimliyə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlarla seçimi keçirilir. Bununla əlaqədar açıq müsabiqə elan olunaraq sənədlərin qəbulu fasiləsiz xarakter alıb.**



Təkcə son iki il ərzində 900-dək namizəd müsabiqələrdə iştirak üçün sənədlərini təqdim edib, 44 nəfər seçilərək ölkə Prezidentinin Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə hakim təyin edilib, 125 nəfər namizəd isə hazırda müsabiqənin müxtəlif mərhələsindədir.

Həmçinin, noyabr ayının 5-də 200-dək hakimliyə namizədlə Dövlət İmtahan Mərkəzində beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələrinin, televiziya və mətbuat təmsilçilərinin iştirakı ilə növbəti test imtahanı keçirilib.

Namizədlər üçün hər cür əlverişli şəraitin yaradıldığı imtahan zamanı onlar sualları müasir texnologiyaların tətbiqi

ilə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırıblar.

COVİD-19 pandemiyası ilə bağlı xüsusi karantin rejiminin tələblərinə əməl olunmaqla keçirilən imtahanın nəticələri hər bir namizədə o, sualları cavablandırdıqdan dərhal sonra elan olunmaqla müvafiq arayış təqdim edilib.

İmtahanda 60 və daha artıq bal toplayaraq uğur qazanmış 93 nəfər hakimliyə namizəd müsabiqənin növbəti mərhələsinə baraxılıb. Proses müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu davam edir. Bununla əlaqədar hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar. Sənədlər Hakimlərin Seçki Komitəsi tərəfindən bütün iş günləri ərzində, o cümlədən elektron qaydada, sadələşdirilmiş prosedurlarla qəbul edilir (hsk@jlc.gov.az). Belə ki, namizədliyin qeydə alınması üçün müvafiq ərizə və aidiyyəti sənədlərin surəti qeyd edilən elektron poçt ünvanına elektron formatda, o cümlədən mobil telefonla göndərilə bilər.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

Ünvan: Bakı şəhəri, Z.Xəlilov küçəsi 540-cı məhəllə

# "Vəkillərin "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadəsi" mövzusunda videokonfrans

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasir çağırışlara uyğun təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması məqsədilə rəqəmsal innovasiyalar geniş tətbiq olunur, məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində yüksək texnoloji (hi-tech) məhkəmələr yaradılır. Artıq 10 ildən çoxdur məhkəmələrin vahid internet portalı insanlara xidmət edir, həmçinin "Elektron məhkəmə" informasiya sistemi yaradılaraq fəaliyyət göstərir.**

Bu sistemin tətbiqi ədalət mühakiməsinin səmərəsini artırır, şəffaflığı və operativliyi təmin edir, proses iştirakçılarına "şəxsi kabinetə" sahib olmaqla tərəf olduqları işlər barədə məlumatları elektron qaydada əldə etmək, prosesdə videokonfrans formatında iştirak etmək imkanı yaradır.

Proses iştirakçılarının həmin sistemdən istifadə vərdişlərinin artırılması, informasiya sisteminin keyfiyyətli və dayanıqlı fəaliyyətinin təmin olunması, praktikada yaranan çətinliklərin həlli ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən tədbirlər müəyyən edilib, o cümlədən e-məhkəmə istifadəçiləri üçün "qaynar xətt" yaradılıb, sistemin tətbiqi imkanlarına dair ictimai təqdimatlar, təlimlər və seminar-müşavirələr keçirilir.

Ədliyyə Nazirliyi tərəfindən Vəkillər Kollegiyası ilə birgə "Vəkillərin "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadəsi" mövzusunda videokonfrans keçirilib.

Vəkillər Kollegiyası Rəyasət Heyətinin, Büro rəhbərlərinin və 200-dək vəkilin iştirak etdiyi tədbirin açılışında nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova və Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək məhkəmə fəaliyyətində rəqəmsal innovasiyaların, o cümlədən elektron məhkəmənin tətbiqinin

əhəmiyyətini, onun şəffaflığa və vətəndaş məmnunluğuna, həmçinin vəkillər və hakimlər arasında prosessual münasibətlərin səmərəli həyata keçirilməsinə xidmət etdiyini qeyd ediblər.

Sonra nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov və İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov, Bakı Apellyasiya Məhkəməsinin hakimi Ramin Qaraqurbanlı tərəfindən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması və əhəmiyyətinə, sistem vasitəsilə məhkəmə monitorinqinin aparılmasına, ondan istifadə təcrübəsinə və praktiki çətinliklərə, e-məhkəmə çərçivəsində vəkillər üçün yaradılmış xidmətlərə dair çıxışlar edilib.

Bildirilib ki, dövlət başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə yaradılmış və məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən e-məhkəmə sistemi elektron sənəd dövriyyəsini, məhkəmə proseslərinin audio və videoyazısını, videokonfransların keçirilməsini təmin edir. Onun digər dövlət qurumları ilə qarşılıqlı inteqrasiyası hesabına zəruri sənədlərin ani vaxt rejimində




əldə olunması insanların, proses iştirakçılarının rahatlığına xidmət etməklə əlavə vaxt itkisinin qarşısını alır.

Hazırda bütün məhkəmələrin 2/3-ni əhatə edən bu sistemin gələn il ölkə üzrə tam təmin olunması nəzərdə tutulur.

Bundan başqa, məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompütere qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka və s. imkan verən "Mobil məhkəmə" tətbiqi, "süni intellekt"dən istifadə, intellektual idarəetmə və digər rəqəmsal yeniliklər barədə məlumat verilib. E-məhkəmə sistemində "şəxsi elektron kabinet" vasitəsilə apellyasiya şikayətlərinin elektron qaydada təqdim edilməsi imkanları əyani nümayiş etdirilib.

Səmimi və konstruktiv dialoq şəraitində keçən tədbirdə elektron məhkəmə sisteminin funksionallığının artırılması, texniki və proqram təminatının təkmilləşdirilməsi, ondan istifadə imkanlarının sadələşdirilməsi və s. ilə bağlı səmərəli fikir mübadiləsi aparılıb, vəkilləri maraqlandıran suallara aydınlıq gətirilib, aparılan faydalı müzakirələrin əhəmiyyəti qeyd olunaraq Ədliyyə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ifadə edilib.

Həmçinin, vəkillərin bu sahədə bilik və bacarıqlarının artırılması məqsədilə Ədliyyə Akademiyasında təlimlərin təşkili, o cümlədən təlimçi vəkillərin hazırlanması, vəkilliyə namizədlərin tədris kursuna müvafiq mövzuların daxil edilməsi qərara alınıb.

## Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Sumqayıt Şəhər Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Sumqayıt Şəhər Məhkəməsinin hakimi F.Əliyevin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin Hərbi qanunvericilik sektorunun müdiri T.Şeyx-Zamanovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının hakimi Ş.Yusifovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimovun mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Şəhər Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 132.1.2-ci maddəsinin ayrılıqda və həmin Məcəllənin 53-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, E.Baxşəliyev şikayətlə Sumqayıt Şəhər Məhkəməsinə müraciət edərək barəsində olan Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin (bundan sonra - Dövlət Əmək Müfəttişliyi Xidməti) 21 noyabr 2017-ci il tarixli inzibati tənbeh vermə haqqında qərarının ləğv edilməsi və iş üzrə icraata xitam verilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 18 iyun 2020-ci il tarixli qərarı ilə şikayət təmin edilməmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 27 noyabr 2020-ci il tarixli qərarı ilə E.Baxşəliyevin apellyasiya şikayəti təmin olunmuş, Sumqayıt Şəhər Məhkəməsinin 18 iyun 2020-ci il tarixli qərarı ləğv edilərək iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 11 mart 2021-ci il tarixli qərarı ilə E.Baxşəliyevin şikayəti təmin olunaraq Dövlət Əmək Müfəttişliyi Xidmətinin 21 noyabr 2017-ci il tarixli qərarı ləğv edilmiş və İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə olan inzibati xəta haqqında iş üzrə icraata xitam verilmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 11 mart 2021-ci il tarixli qərarından Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi tərəfindən 27 aprel 2021-ci il tarixində apellyasiya şikayəti verilərək həmin qərarın ləğv edilməsi və inzibati tənbeh vermə haqqında 21 noyabr 2017-ci il tarixli qərarının qüvvədə saxlanılması xahiş edilmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 3 may 2021-ci il tarixli qərardadı ilə Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi tərəfindən verilmiş şikayət və toplanmış inzibati xəta haqqında iş üzrə materiallar birinci instansiya məhkəməsinə qaytarılmışdır.

Apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, Sumqayıt Şəhər Məhkəməsinin 11 mart 2021-ci il tarixli qərarının inzibati protokolu tərtib etmiş orqanın nümayəndəsinə 15 mart 2021-ci il tarixində rəsmi təqdim edilməsindən 1 aydan artıq müddət keçməsinə baxmayaraq, həmin orqanın nümayəndəsi tərəfindən ötürülmüş prosessual müddətin bərpa olunması barədə vəsatət verilməmiş və birinci instansiya məhkəməsi işə səthi yanaşaraq qeyd olunan hallara hüquqi qiymət verməmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin müraciətində cinayət-prosessual qanunvericiliyinin analogiya üzrə inzibati xəta haqqında iş üzrə icraat prosesində tətbiqi məsələsinə toxunularaq qeyd olunur ki, cinayət-prosessual qanunvericiliyində analoji məsələləri tənzimləyən normalar mövcud olduğu halda, inzibati xəta haqqında iş üzrə qərardan verilən apellyasiya şikayətlərinin mümkünlüyünün yoxlanılması ilə bağlı məsələlərin həlli İnzibati Xətalar Məcəlləsində tam öz əksini tapmamışdır.

Müraciətedən hesab edir ki, məsələ İnzibati Xətalar Məcəlləsinin 132-ci maddəsinin tələblərinə uyğun şəkildə həll edilməlidir. Lakin İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsində göstərilən "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" ifadəsinə münasibətdə fikir ayrılığının mövcudluğu məhkəmə təcrübəsində çətinliklər yaradır.

Belə ki, apellyasiya instansiyası məhkəməsinin mövqeyinə görə, İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsində göstərilən "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" həmin Məcəllənin 53-cü maddəsində müəyyən edilmiş hallardır və prosessual müddətlərin buraxılıb-buraxılmamasının müəyyən edilməsi ilə bağlı məsələlər İnzibati Xətalar Məcəlləsinin 130.2-ci maddəsinə əsasən birinci instansiya məhkəməsi tərəfindən həll edilməlidir.

Müraciətedənin qənaətinə görə isə İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsində göstərilən "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" qərardan verilən şikayət üzrə icraatı rədd edən hallar, yəni şikayətin səlahiyyəti olan şəxs tərəfindən verilməməsi, imzalanmaması və s. kimi şikayətin icraata götürülməsini istisna edən prosessual məsələlərdir. Lakin həmin Məcəllənin 53-cü maddəsində göstərilən hallar mahiyyəti üzrə qərar qəbul edilərkən müəyyən olunan hallardır.

Bu səbəbdən Sumqayıt Şəhər Məhkəməsi vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsinin ayrılıqda və həmin Məcəllənin 53-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir.

Müraciətlə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında qanunverici tərəfindən hər hansı ictimai münasibətlərin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul edilməsi zamanı hüquqi dövlətin ali prinsiplərindən olan hüquqi müəyyənlik prinsipinə riayət edilməsinin vacibliyi xüsusi vurğulanmışdır.

Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə ediləcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ

hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2012-ci il 2 aprel tarixli Qərarları).

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunun aydın və proqnozlaşdırıla bilən olması hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun ümumiliyini təmin etmək zərurəti ilə uzlaşmalıdır. Nəzərə almaq lazımdır ki, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır. Bu səbəbdən qanunda ümumi anlayışlardan istifadə edilməsi qaçılmazdır.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 64.9-cu maddəsinə əsasən, qanunda normaların həddindən artıq detallaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyətlərinə müdaxiləyə gətirib çıxarmamalıdır.

Hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi isə məhz məhkəmə təcrübəsi vasitəsilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarı).

Bu zaman məhkəmə təcrübəsində normativ hüquqi aktların müddəaları onların konstitusiya hüquqi mənasına uyğun tətbiq olunmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2014-cü il 29 aprel tarixli Qərarı).

Odur ki, İnzibati Xətalar Məcəlləsinin qeyri-müəyyən, fərqli yanaşmalara səbəb olan normalarının onların konstitusiya hüquqi mənasına və hüquqi təyinatına uyğun şərhi vasitəsilə məzmununun birmənalı və aydın müəyyən edilməsi və vahid mövqeyin formalaşdırılması hüquq tətbiqedən orqanların fəaliyyətində qanunçuluq prinsipinin gözlənilməsinə imkan yaradaraq, inzibati xəta haqqında işin əsassız olaraq uzanmamasına, işlərə ağlabatan müddətlərdə baxılmasına və son nəticədə Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60-cı maddəsinin I hissəsi ilə qorunan ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsinə xidmət edir.

Nəzərə alınmalıdır ki, Konstitusiyada təsbit olunmuş hər hansı hüququn, o cümlədən hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququnun həyata keçirilməsinin tənzimlənməsi zamanı hüquqi müəyyənlik prinsipinə riayət olunmaması həmin hüququn pozulması ilə nəticələnə bilər (Konstitusiya Məhkəməsi Plenumunun Klark Qordon Morrisin şikayəti üzrə 2017-ci il 26 may tarixli Qərarı).

İnzibati Xətalar Məcəlləsi digər məcəllələşdirilmiş normativ hüquqi aktlardan strukturuna və tənzimlədiyi münasibətlərin xarakterinə görə fərqlənir. Belə ki, həmin Məcəllə özündə həm maddi normaları, həm də prosessual, yəni inzibati xətalar haqqında işlər üzrə icraatın qaydalarını tənzimləyən normaları ehtiva edir.

Qeyd edilən Məcəllənin 48-ci maddəsinə əsasən, inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaqdan, inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaqdan, inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etməkdən, çıxarılmış qərarın icrasını təmin etməkdən, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanmasını qadağan edən, habelə artıq başlanmış icraatın davam etdirilməsini mümkünsüz edən hallar təsbit edilmişdir. Bu halların aşkar

edilməsi icraatın istənilən mərhələsində mümkün olduğundan, qanunverici inzibati xəta haqqında iş üzrə icraatın hər bir mərhələsində (inzibati xəta haqqında işin baxılmağa hazırlanması, inzibati xəta haqqında işə baxılması və inzibati xəta haqqında iş üzrə qərara yenidən baxılması zamanı) İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulmuş hallardan birinin müəyyən edilməsi əsası ilə icraata xitam verilməsini nəzərdə tutmuşdur (İnzibati Xətalar Məcəlləsinin 109.2, 114.2.1 və 135.1.5-1-ci maddələri).

İnzibati Xətalar Məcəlləsinin 17-ci Fəsli inzibati xəta haqqında iş üzrə qərara yenidən baxılmasını tənzimləyir (128-137-ci maddələr).

Həmin Məcəllənin 132-ci maddəsində inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə və ya protestə baxmağa hazırlıq mərhələsində həll edilən prosessual məsələlərin dairəsi müəyyən edilmişdir. Bunlara inzibati xəta haqqında işin həmin işə baxan hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) aid olub-olmaması, inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların mövcud olub-olmaması, vəsatətlərə baxılması, zəruri olduqda ekspertizanın təyin edilməsi, əlavə materialların tələb olunması, şikayətə və ya protestə baxılması üçün lazımi şəxslərin çağırılması aiddir (132.1.1-132.1.3-cü maddələr).

İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsində göstərilən "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" müddəasının həmin Məcəllənin 53-cü maddəsində müəyyən edilmiş halları ehtiva edib-etməməsi ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsində nəzərdə tutulmuş qeyd edilən müddəanın həmin Məcəllənin 53-cü maddəsində müəyyən edilmiş inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların bir qismini ehtiva etməsi mümkündür. Belə ki, inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə (protestə) baxmağa hazırlıq mərhələsinin təyinatı iş üzrə sübutların qiymətləndirilməsinə yönələn hərəkətləri etmədən, inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə (protestə) baxılması üçün şəraitin təşkil edilməsindən, onun uğurla həyata keçirilməsi üçün ilkin təminatların yaradılmasından ibarətdir. İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulan bəzi halların müəyyən edilməsi isə yalnız inzibati xəta haqqında işə mahiyyəti üzrə baxıldıqdan və müvafiq sübutlar qiymətləndirildikdən sonra mümkündür (məsələn 53.1.1, 53.1.2, 53.1.3-cü və s. maddələrdə göstərilən hallar). Bu səbəbdən inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə (protestə) baxmağa hazırlıq mərhələsində İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsi ilə müəyyən edilmiş icraatı rədd edən hallardan mahiyyəti üzrə işə baxılmanı və sübutların qiymətləndirilməsini tələb etməyən hallar müəyyən olunarsa, inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilməlidir.

Beləliklə, İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsinin "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" müddəası həmin Məcəllənin 53-cü maddəsində göstərilən, mahiyyəti üzrə işə baxmadan və sübutları qiymətləndirmədən icraatı rədd edən halları ehtiva edir.

İnzibati xəta haqqında iş üzrə qərardan verilmiş şikayətin və ya protestin mümkünlüyünün yoxlanılması ilə bağlı müraciətdə qaldırılmış məsələyə gəlincə isə qeyd edilməlidir ki, İnzibati Xətalar Məcəlləsinin 130.1-ci maddəsinə əsasən, bu Məcəllənin 126.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qərarın surəti bu Məcəllənin 57.1-57.5-ci maddələrində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest verilə bilər. İnzibati Xətalar Məcəlləsinin 130.1-ci maddəsində nəzərdə tutulmuş müddət üzrlü səbəbdən buraxıldıqda, şikayət və ya protest verən şəxsin vəsatəti ilə bu müddət hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən bərpa edilir. Buraxılmış müddətin bərpası qeyri-mümkün hesab edildikdə, bu halda vəsatəti rədd etmə haqqında qərardad qəbul edilir (130.2 və 130.3-cü maddələr).

Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsinin 130-cu maddəsində inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest vermə müddəti müəyyən edilmiş, habelə buraxılmış müddətin

bərpa olunmasının mümkünlüyü nəzərdə tutulmuşdur. Lakin İnzibati Xətalar Məcəlləsinin həmin maddəsi inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest vermə müddətinin buraxıldığı hallarda həmin qərardan verilən şikayətin (protestin) mümkünlüyünün yoxlanılmasına dair prosessual qaydaları təfsilatı ilə müəyyən etməmişdir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, inzibati xətalar qanunvericiliyində inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest vermə müddətinin buraxılıb-buraxılmamasının müəyyən edilməsi, habelə şikayət və ya protestin mümkünlüyü ilə əlaqədar digər prosessual məsələlər (şikayətin səlahiyyəti olan şəxs tərəfindən verilib-verilməməsi, imzalanıb-imzalanmaması və s.) kifayət qədər tənzimlənməmişdir.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu mövcud qanunvericilik normalarından, həmçinin özünün əvvəlki hüquqi mövqeyindən çıxış edərək hesab edir ki, inzibati xəta haqqında iş üzrə məhkəmə qərarından verilmiş şikayət və ya protest vermə müddətinin buraxılıb-buraxılmamasının yoxlanılması ilə əlaqədar prosessual məsələlərin tənzimlənməsi zamanı cinayət-prosessual qanunvericiliyinin müvafiq normaları qanunun analogiyası üzrə tətbiq edilməlidir.

Belə ki, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" 2016-cı il 2 noyabr tarixli Qərarında qeyd olunmuşdur ki, cinayət-prosessual qanunvericiliyinin analogiya üzrə inzibati xəta haqqında iş üzrə icraat prosesində tətbiqi istisna edilmir. İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsi inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə məhdudiyyət qoysa da, bu, həmin hüquq sahəsinin maddi hüquq normalarına (məsuliyyəti müəyyən edən normalara) aiddir. Lakin qanunun analogiya üzrə tətbiqi o zaman mümkündür ki, oxşar prosessual münasibətlər inzibati xətalar qanunvericiliyində müvafiq norma ilə tənzimlənməsin.

Qanunun analogiya üzrə tətbiqi konkret hüquq münasibətlərini tənzimləyən normanın olmamasını və bu hüquq münasibətlərinə oxşar münasibətləri tənzimləyən digər qanun normasının tətbiqini nəzərdə tutur. Məhz konkret normanın olmaması qanunun analogiya üzrə tətbiqini onun təfsirindən fərqləndirən əsas əlamətdir.

Hüquq nəzəriyyəsində formalaşmış fikrə əsasən, hüququn təfsiri normanın mətninin mənasının aydınlaşdırılması və izahıdır. Hüquqi boşluq isə əksinə, hüquqi məsələni tənzimləyən normativ mətnin olmamasını və ya natamam olmasını nəzərdə tutur. Normativ akt konkret mübahisəli məsələnin həlli üçün nəzərdə tutulduqda, lakin nəticə etibarı ilə mətninin ikimənalılığı və ya qeyri-dəqiqliyinə görə deyil, natamamlığına görə bunu etmək qabiliyyətində olmadıqda boşluq yaranır.

Beləliklə, baxmayaraq ki, hüquqi boşluğun müəyyən edilməsi yalnız hüquq normasının təfsir edilməsindən sonra mümkün olur, onun aradan qaldırılması hüquq normasının təfsiri prosesi çərçivəsində həyata keçirilmir. Hüquq tətbiqedən normanın məzmununu, o cümlədən nəzərdə tutulan mənanı müəyyən etməklə həmin normanın qeyri-müəyyənliyini və ikimənalılığını aradan qaldırmış olur. Boşluğun aradan qaldırılması zamanı isə hüquq tətbiqedən faktiki olaraq konkret hüquqi mübahisənin birdəfəlik həlli üçün qanunvericiliklə müəyyən edilmiş meyarlara müvafiq davranış qaydası müəyyənləşdirir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) XLVII fəsli məhkəmələrin hökm və qərarlarına apellyasiya qaydasında yenidən baxılmasına dair prosessual münasibətləri tənzimləyir. Həmin Məcəllənin 386.2-ci maddəsinə əsasən, apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilmə müddətinin bərpa edilməsi məsələsi birinci instansiya məhkəməsində məhkəmə iclasında sədrlik edən və ya hakim tərəfindən həll edilir.

Cinayət-Prosessual Məcəlləsində apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi qaydasına, apellyasiya şikayətinə və ya apellyasiya protestinə dair tələblərə, həmçinin apellyasiya şikayətinin və apellyasiya protestinin verilməsinin nəticələrinə dair müddəalar öz əksini tapmışdır (385, 387 və 389-cu maddələr).

Eyni zamanda Cinayət-Prosessual Məcəlləsinin 391.4-

cü maddəsinə müvafiq olaraq, bu Məcəllənin 386 və 387-ci maddələrinin tələbləri yerinə yetirilmədikdə apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin hərəkətsiz saxlanılması barədə qərar çıxarır və öz qərarı ilə həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək müddət təyin edir. Təyin edilmiş müddət ərzində həmin tələblər yerinə yetirilmədikdə, apellyasiya instansiyası məhkəməsinin qərarı ilə apellyasiya şikayəti və ya apellyasiya protesti verilməmiş hesab edilir və baxılmamış saxlanılır.

Konstitusiya Məhkəməsinin Plenumu özünün bir sıra qərarlarında qeyd etmişdir ki, Konstitusiyanın 7-ci maddəsində təsbit olunmuş hakimiyyətin bölünməsi prinsipinə görə Konstitusiya Məhkəməsi normayaradıcı, yəni hər hansı hüquq münasibətlərinin tənzimlənməsinə dair normativ hüquqi aktı qəbul edən, o cümlədən hər hansı normativ hüquqi akta dəyişikliklərin və əlavələrin edilməsi təşəbbüsünə malik olan orqan deyil, səlahiyyətli subyektlərin sorğu və müraciətləri, vətəndaşların şikayətləri əsasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən qəbul olunmuş aktlar üzərində konstitusiya nəzarətini həyata keçirən ali konstitusiya ədalət mühakiməsi orqanıdır ("Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2020-ci il 25 dekabr, "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair" 2017-ci il 12 aprel tarixli Qərarlar və s.).

Qanunvericilikdə müxtəlif ictimai münasibətlərin və onlardan irəli gələn hüquqi nəticələrin tənzimlənməməsi son nəticədə həmin münasibətlərin subyektlərinin hüquq və vəzifələrinin həcminin müəyyən edilməsinə mənfi təsir göstərə bilər. Bu isə öz növbəsində bir çox hallarda əsassız olaraq hüquqların məhdudlaşdırılmasına, vəzifələrin yerinə yetirilməməsinə gətirib çıxarar.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hazırda qüvvədə olan inzibati xətalar qanunvericiliyinin inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protestin verilməsi ilə əlaqədar prosessual münasibətləri tənzimləyən normalarının təkmilləşdirilməsi məqsədəmüvafiqdir.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsinin "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" müddəası yalnız həmin Məcəllənin 53-cü maddəsində göstərilən, mahiyyəti üzrə işə baxmadan və sübutları qiymətləndirmədən icraatı rədd edən halları ehtiva edir;
- bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqeyə uyğun olaraq, inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protestin verilməsi ilə bağlı məsələlər cinayət-prosessual qanunvericiliyinin analoji normaları əsasında həll edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2-ci maddəsinin "inzibati xəta haqqında iş üzrə icraatı rədd edən hallar" müddəası yalnız həmin Məcəllənin 53-cü maddəsində göstərilən, mahiyyəti üzrə işə baxmadan və sübutları qiymətləndirmədən icraatı rədd edən halları ehtiva edir.
2. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqeyə uyğun olaraq, inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protestin verilməsi ilə bağlı məsələlər cinayət-prosessual qanunvericiliyinin analoji normaları əsasında həll edilsin.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 11 noyabr 2021-ci il*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 26 Tiraj:1000 ədəd